www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 22 fevral 2016-cı il Bazar ertəsi № 41 (6362) Qiyməti 60 qəpik

**Xəbər**

## İkiqat Azərbaycan çempionu öz maşınında güllələndi

yazısı səh.14-də

**Gündəm**

### Azərbaycan müxalifəti sərtləşir - ikinci antiböhran tədbiri keçirildi



Düşərgə yenidən hökumətə səsləndi, ölkədəki iqtisadi-siyasi krizisdən çıxış yolu göstərdi, təhlükəli gözləntilər haqda xəbərdarlıq etdi...

yazısı səh.3-də

### İzmirdən Ankaraya Qarabağ çağırışları - əməkdaşımız Forumdan yazır

yazısı səh.7-də

### "MTN işi"ndə həbs olunanların tam siyahısı "Yeni Müsavat" da

yazısı səh.10-da

### Türkiyəyə qarşı terror hücumları Ərdoğana görədir? - azərbaycanlı ekspertdən maraqlı şərh

yazısı səh.9-da

### Villası yandırılan vəkilə indi də hədə zəngləri gəlir

yazısı səh.6-da

### Ankara faciəsi Türkiyə səfirliyini nədən ziyarətgaha çevirmədi? - rəylər

yazısı səh.4-də

### Mirvari Qəhrəmanlı bp-ni məhkəməyə verib

yazısı səh.12-də

### Əfv Komissiyasının tərkibi dəyişdi - gözləntilər də dəyişəcəkmi?

yazısı səh.5-də

### Ermənilərin almaq istədiyi deyilən "Qarabağ Moskva" klubuna Bakıdan sərt etirazlar

yazısı səh.13-də

### Alman nəşri "Dünya müharibəsinin ssenarisi"ndən yazdı

yazısı səh.2-də

### Boz ay girdi, sabah ilaxır çərşənbələr başlayır

yazısı səh.14-də

## Rusiya prezidenti o vaxt demişdi ki...

# PUTİNİN UNUDULAN HƏDƏSİ VƏ BAKININ QƏLİZLƏŞƏN SEÇİMİ - TƏLƏB-ŞƏRTLƏR AĞIRLAŞIR

Ankaradakı terror olayları Vaşinqton üzərinə də şübhə toxumları səpib; Türkiyə ABŞ-ı nədən Rusiya ilə gizli işbirliyində suçlayır, Amerika ilə müttəfiqlik təhlükədəmi? Dəyişən dönəmin Azərbaycana da birbaşa dəxli var, çünki...




yazısı səh.8-də

## Akif Çovdarovla bağlı yeni qalmaqal ortaya çıxdı

Həbsdəki MTN generalının işgəncəsinə məruz qaldığını deyən "bacıoğlu" fırıldaqda suçlanır; şikayətçi **Xaləddin Yusibov:** "O, taxta alveri adı ilə bir neçə nəfəri aldadıb..."

yazısı səh.10-da



### Rəsul Quliyevin ittihamlarına reaksiyalar gəldi

yazısı səh.6-da



### Jirinovski yenə sərsəmlədi: "Türkiyənin hərbi komendantı olacağam..."

yazısı səh.9-da



Arif Quliyev

### Gülüş ustası xanım jurnalisti təhqir etdi

yazısı səh.13-də

YENİ MÜSAVAT
N 41 (6362) 22 fevral 2016




# Almaniya qəzeti "Dünya müharibəsinin ssenarisi"ndən yazdı

**Almaniyanın "Welt" qəzeti bugünkü yayımında dünya liderlərinin fotolarını manşet edərək, "Dünya müharibəsinin ssenarisi" başlıqlı altında məqalə dərc edib. Musavat.com xəbər verir ki, qəzetin siyasət səhifəsində yenə tam səhifə verilən xəbərdə dünya müharibəsi ehtimalına yer verilib.**

Verilən xəbərdə diqqət çəkən məqamlar belədir: "Suriya böhranında lider dövlətlərin qarşılıqlı maraqları şiddətlə toqquşur. Qlobal qarşıdurmalar artıq qaçılmaz olub. Fikirləşin ki, müharibə oldu. Hərbi qarşıdurma ssenarisi içində Rusiya-ABŞ qarşıdurması baş tutarmı?

"Barıt çəlləyi" halına gələn Suriya bütün fəlakət ssenarilərinə açıqdır. Lider dövlətlər arasında qarşıdurma və müharibə uzun müddət idi ki, düşünülmürdü. Artıq hər şey ola bilər. Böyük müharibələr həmişə xırda səbəblərdən meydana gəlib. Rus, amerikan, türk qırıcı təyyarələri havada açıq ova çıxdılar. Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan öz pilotlarına "yaşıl işıq" yandırdı. Türkiyə-Suriya sərhədində hava qarşıdurmalarının yaşandığı dəyişik müharibə ssenarisi açıqlandı.

Fransa prezidenti Fransua Olland ötən həftə verdiyi açıqlamada bildirdi ki, Türkiyə və Rusiya arasında hər an müharibə baş verə bilər. Prezident Ərdoğan NATO-nu müharibəyəmi çəkmək istəyir?"

# Vağzaldakı ölüm işinin araşdırılması düyünə düşüb

## Lumu Kazımova aldadılmaqla bağlanan alqı-satqı müqaviləsinin ləğvini tələb edir

**"Həyat yoldaşım Mövsüm Kazımov Bakı Dəmir Yolu vağzalında yerləşən "Ləman" kafesində öldürülüb. Şikayətlərimdən sonra aparılan araşdırmalar faktiki olaraq işin üstünün açılmasına xidmət etməyib". Bakı sakini Lumu Kazımova belə deyir.**

Onun sözlərinə görə 28 fevral 2015-ci ildə həyat yoldaşı Bakı Dəmir Yol vağzalındakı "Ləman" kafesində Eldar Əli Əşrəf oğlu Rəhimovla görüşüb və orada müəmmalı şəkildə ölüb. Ölüm işi ilə bağlı Nəsimi Rayon Prokurorluğunda çox səthi araşdırma aparılıb və 1 aprel 2015-ci il tarixdə cinayət işinin başlanılmasının rədd olunması barədə qeyri-obyektiv qərar qəbul edilib. Kazımovanın sözlərinə görə, bununla yanaşı qəbul edilmiş qərar gizlədilib, Baş Prokurorluğun göstərişindən sonra ona verilib.

L.Kazımova həyat yoldaşının ölümündə Eldar Əli Əşrəf oğlu Rəhimovu günahkar bilir. Belə ki, Eldar Rəhimov həyat yoldaşını ticarət qurmaq adı altında aldadaraq tanışı Elçin Zamanovdan 30 min manat faizlə pul götürüb. Eldar Rəhimov söz verib ki, pulu 3 ay müddətinə qaytaracaq. Bu məqsədlə E.Rəhimov onlara məxsus olan Bakı şəhəri, Nəsimi rayonu, 3-cü mikrorayon, A.Musatafayev küçəsi 17 "a" ünvanında yerləşən 46 saylı, 3 otaqdan ibarət mənzili girov qoymaq adı ilə Elçin Zamanovun adına keçirib. L.Kazımova bildirir ki, əslində isə mərhum həyat yoldaşı ilə E.Rəhimovun arasındakı razılığa görə mənzil məhz girov qoyulmalı imiş. Buna görə də L.Kazımova aldatma yolu ilə bağlanan alqı-satqı müqaviləsini ləğvini tələb edir.

Hazırda kirayədə yaşayan L.Kazımova Xəzər Rayon Məhkəməsinə iddia ərizəsi təqdim edib. L.Kazımova mənzildən çıxarılarkən orada qalan və ona məxsus əşyaların dəyərinin ödənilməsini, evinin saxtakarlıqla əlindən alınması üzündən illərlə kirayədə yaşadığını və ödədiyi kirayə haqqının Eldar Rəhimovdan tutularaq ona ödənilməsini tələb edir. Artıq iş üzrə Xəzər Rayon Məhkəməsində hakim Əkrəm Qəhrəmanovun sədrliyi hazırlıq iclası keçirilib.

L.Kazımova iş üzrə Yasamal Rayon Polis İdarəsinin İstintaq Şöbəsində aparılan araşdırmaların qeyri-obyektiv olduğunu bildirir. Bu səbəbdən də baş prokuror Zakir Qaralovdan xahiş edir ki, işin digər rayon polis idarəsində araşdırılması təmin olunsun.

❑ **E.HÜSEYNOV**

# Azərbaycanlılar Ermənistan səfirliyi qarşısında aksiya keçirdilər

**İsveç Azərbaycanlıları Konqresinin üzvləri Xocalı soyqırımının 24-cü ildönümü ilə əlaqədar Ermənistanın bu ölkədəki səfirliyinin binası qarşısında etiraz aksiyası keçiriblər. AzərTAc bildirir ki, aksiya İsveç cəmiyyətini 1992-ci il fevralın 26-da Xocalı şəhərində Ermənistan silahlı birləşmələrinin dinc azərbaycanlılara qarşı törətdiyi qətliam barədə məlumatlandırmaq məqsədilə təşkil olunub.**



İştirakçılar bu soyqırımının dünya ictimaiyyəti tərəfindən tanınması və onu törədən şəxslərin beynəlxalq məhkəməyə verilməsi tələbini irəli sürüblər. Əllərində Ermənistanın cinayətkar rəhbərliyini və bu dövlətin işğalçılıq siyasətini pisləyən şüarlar yazılmış plakatlar tutan aksiya iştirakçıları şəhər sakinlərinə Xocalı soyqırımına dair məlumatların yer aldığı vərəqələr paylayıblar.



# İlhamənin həbs etdirdiyi köməkçisinin bacısı vəfat edib

## "Bacısı onun həbsinə dözməyib dünyasını dəyişdi..."

**Müğənni İlhamə Quliyevanın həbs etdirdiyi köməkçisi Mehriban Hüseynovanın böyük bacısı dünyasını dəyişib. Bu barədə M.Hüseynovanın həyat yoldaşı Tofiq Hüseynov "Yeni Müsavat"a açıqlamasında bildirib:**

"Rəhmətlik bacısı onun fikrini çox çəkirdi. Olanlara dözməyib axırda dünyasını dəyişdi. Bacısının qırx mərasimi bu günlərdə oldu..."

T.Hüseynov hazırda Bakı İstintaq Təcridxanasında saxlanılan Mehriban Hüseynovanın işində hələlik heç bir yenilik olmadığını deyib: "Onun barəsində seçilmiş həbs qəti-imkan tədbirinin dəyişdirilməsi ilə əlaqədar prokurorluğa, deputat Çingiz Qənizadəyə məktubla müraciət etmişəm. Ümid edirik ki, hüquq-mühafizə orqanları işə ədalətli yanaşacaq".

Xatırladaq ki, hazırda həbsdə olan Mehriban Hüseynova redaksiyamıza üç müraciət ünvanlayaraq müğənniyə qarşı ittihamlar səsləndirib. Sonuncu müraciətində isə bildirib ki, müğənniyə barış təklifi edib. İlhamə Quliyeva isə bunun qarşılığında onun ailəsindən 45 min manat rüşvət istəyib.

❑ **Xalidə GƏRAY**

# Seyran Ohanyan Qarabağda təxribat törədən PKK terrorçusunun evində

**Ermənistan müdafiə naziri Seyran Ohanyan 19 dekabr 2015-ci il tarixində Qarabağda öldürülən PKK terrorçusunun evini ziyarət edib. BAKU.WS-in məlumatına görə, işğal altındakı Dağlıq Qarabağda Azərbaycan mövqelərinə sızmağa çalışarkən öldürülən terrorçunun evinə ziyarətə gedən Ermənistanın müdafiə naziri Seyran Ohanyan ailəyə başsağlığı verib.**



Terrorçuya təriflər yağdıran Ohanyan Ermənistan adından terrorçunun anasına səbr diləyib. Görüntülərdən məlum olur ki, terrorçunun şəkilinin altında PKK terror təşkilatının bayrağı və medallar var.

Qeyd edək ki, dekabr ayında öldürülən terrorçunun cənazə mərasimində tabutu PKK terror təşkilatının bayrağına sarılıb.

# Silahlı basqına məruz qalan "Azərsun" əməkdaşının kimliyi məlum oldu

**Srağagünkü silahlı basqın zamanı "Azərsun" şirkətinin güllə yaraları almış əməkdaşı İmişli rayon sakini, 1978-ci il təvəllüdlü Quliyev Ramil Aydın oğludur. Bunu virtualaz.org saytına İmişli Rayon Mərkəzi Xəstəxanasının baş həkimi Cəsur Paşayev deyib.**

Baş həkimin sözlərinə görə, yaralının üzərində ilkin cərrahiyyə əməliyyatı aparılıb. O, çiyin və bazu nahiyəsindən güllə yaraları alıb. Hazırda vəziyyəti qənaətbəxşdir.

Xatırladaq ki, üç gün əvvəl Saatlı rayonunun Hacıqasımlı kəndi ərazisində bu rayondakı mağazalardan satış pulunu götürərək geri qayıdan lAzərsun» şirkətinin İmişlidəki ofisinin əməkdaşının idarə etdiyi VAZ-2107 markalı avtomaşına silahlı basqın edilib. Şirkət işçisinin idarə etdiyi avtomobili saxlatdıraraq qarət etmək istəyən basqınçılar buna nail ola bilmədikdə həmin maşını təqib etməyə başlayıblar. Lakin bunun da nəticə vermədiyini gördükdə, arxadan təqib etdikləri maşına ov tüfəngindən atəş açıblar.Nəticədə VAZ-2107-nin arxa şüşəsi qırılıb və güllələrdən bir neçəsi sürücü Ramil Quliyevə dəyib.

# Putin Şoyqunu İrana göndərdi

**Rusiyanın müdafiə naziri Sergey Şoyqu fevralın 21-də İrana rəsmi səfər edib. Virtualaz.org bildirir ki, "RİA "Novosti" bu barədə Rusiyanın Tehrandakı səfirliyinə istinadən məlumat alıb.**

Məlumata görə, S. Şoyqu səfər çərçivəsində İran prezidenti və müdafiə naziri ilə görüşəcək.

Xatırladaq ki, fevralın 16-da Rusiya prezidenti Vladimir Puin Kremldə İranın müdafiə naziri Hüseyn Dehqanla görüşmüşdü.

"Qaya Mətbuat Yayımı" MMC!

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan**
**"Yeni Mesavat" - 0.60 AZN**
**və bundan əlavə 2500 adda yerli**
**və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur

# Bakıda möcüzə kimi olay: özünü 7-ci mərtəbədən atdı, sağ qaldı...

**Bakıda 22 yaşlı gənc özünü hündürlükdən ataraq intihara cəhd edib. Lent.az-ın məlumatına görə, hadisə fevralın 20-də Günəşli qəsəbəsində baş verib. Özünü qəsəbədəki doqquzmərtəbəli binalardan birinin 7-ci mərtəbəsindən atan 1996-cı il təvəllüdlü Vahabzadə Orxan Azad oğlu xoşbəxtlikdən sağ qalıb. O, müxtəlif dərəcəli bədən xəsarətləri ilə 3 saylı şəhər xəstəxanasına yerləşdirilib.**

Bildirilir ki, müayinə zamanı özünü 7-ci mərtəbədən atan gəncin bədənində sınıq aşkarlanmayıb. Ona bədənin müxtəlif nahiyələrinin əzilməsi və küt zədələnmə diaqnozu qoyulub. Yaxınlarının bildirdiyinə görə, O.Vahabzadə bir müddətdir ki, xəstəlikdən əziyyət çəkir və bu səbəbdən həyatına son qoymaq istəyib. Faktla bağlı araşdırma aparılır.

# Ankara terrorunu törətməkdə şübhəli bilinən 21 nəfər məhkəmədə

**Ankara terrorunun törədilməsində şübhəli bilinən 21 nəfər məhkəmə qarşısına çıxarılacaq. Musavat.com xəbər verir ki, bu barədə məlumat DHA agentliyində yer alıb.**

Məlumata görə, paytaxt Ankarada fevralın 17-də PKK-nın qolu olan TAK tərəfindən təşkil olunan və 28 nəfərin həyatına son qoyan terror aktında şübhəli bilinən 21 nəfər saxlanılıb. Verilən məlumata əsasən, həmin şəxslər Türkiyənin müxtəlif şəhərlərində keçirilən əməliyyatlar nəticəsində tutulublar. Xəstəxanada müayinədən keçirilən şübhəlilər dünən məhkəməyə göndəriliblər.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

**Fevralın 21-də ölkə müxalifəti böhranla bağlı ikinci geniş toplantısını keçirib. ADP qərargahında baş tutan tədbirdə müxalifət partiyalarının sədrləri və rəhbərlikdə təmsil olunan siyasilər, tanınmış ekspertlər, ictimai-siyasi xadimlər, habelə vətəndaş cəmiyyəti təmsilçiləri və bir sıra qeyri-hökumət təşkilatları rəhbərləri iştirak ediblər.**







# Azərbaycan müxalifəti sərtləşir - ikinci antiböhran tədbiri keçirildi

## Düşərgə yenidən hökumətə səsləndi, ölkədəki iqtisadi-siyasi krizisdən çıxış yolu göstərdi, təhlükəli gözləntilər haqda xəbərdarlıq elədi...











Toplantıda ölkədəki iqtisadi və siyasi böhranla bağlı son durum, həmçinin ictimai siyasi-vəziyyət müzakirə edilib. Dövlət himninin oxunması ilə başlanan tədbirin aparıcısı, **KXCP sədri Mirmahmud Mirəlioğlu** bildirib ki, müxalifətin böhranla bağlı yaratdığı İşçi Qrup artıq təkliflərini hazırlayıb: "Ökəmizdə baş verənləri hər birimiz bilirik".

**AXP sədri Pənah Hüseyn** isə hazırlanan təkliflərdən ibarət bəyanatı səsləndirib. O, bildirib ki, bu kimi tədbirlər artıq başlanacaq xalq hərəkatının qığılcımlarıdır: "Tezliklə ADP-nin böyük zalı ilə kifayətlənməyəcək bu xalq toplantısı. Azərbaycanın haqq səsini bütün dünya eşidəcək".

P.Hüseyn qeyd edib ki, ölkədə maliyyə-iqtisadi böhran dərinləşməkdə davam edir. Bank sektorunda iflas geniş vüsət alıb, əhalinin gəlirləri, yaşam səviyyəsi aşağı düşüb, kasıblıq və səfalət artıb. Onun sözlərinə görə, müxalifət bu vəziyyətdə ciddi islahatların vacibliyini vurğulayır: "Həmçinin, hakimiyyətlə müxalifət arasında dialoqu vacib sayır. Siyasi manipulyasiya məqsədilə bunun edilməsi düzgün deyil. Hakimiyyətin könüllü şəkildə real islahatlara getməyəcəyi bilinir".

**Dünyəvi Bozqurd Partiyasının rəhbəri Şakir Qulubəyli** isə hesab edir ki, ölkəni dərin böhrana salmış bu hakimiyyət ondan çıxmaq gücündə deyil: "Yeniləri, yeni ideoloji xətt hakimiyyətə gəlməlidir".

**Politoloq Ərəstun Orucluya** görə, hakimiyyət beynəlxalq aləmdən gələn təzyiqlərə əməl etmək istəmir, bunu zəiflik əlaməti sayır: "Bundan da ölkəyə ikitərəfli ziyan dəyir. Bir tərəfdən biz artıq sanksiyalar ərəfəsindəyik. Sanksiyalarla bağlı mətbuatda siyasətçilərin səsləndirdiyi fikirlərinə rəğmən, mən əksini deyəcəyəm. Bildirilir ki, bu sanksiyalar dövlətə qarşıdır, yalnız məmurlara qarşı deyil. Elə deyil. Azərbaycanla enerji əməkdaşlığına sanksiyaların tətbiq olunacağı yazılır. Beynəlxalq maliyyə qurumları ilə əməkdaşlığa da sanksiya qoyulacaq. Beləliklə, düşünürəm ki, bu sanksiyalardan yayınmaq üçün ən başlıcası cəmiyyətdə səfərbərliyə nail olmaq üçün bizə müştərək maraq nöqtəsi lazımdır. Bu da siyasi məhbuslardır. Son dövrdə müxalifət baş verən böhranda yetərincə konstruktiv mövqe nümayiş etdirdi. Heç kəs bu vəziyyətdən istifadə etmək kimi qarşısına vəzifə qoymadı. Bunu vətəndaş cəmiyyətinin gücsüzlüyü kimi təqdim etmək düzgün deyil. Hakimiyyətin iqtisadiyyatda yol verdiyi faciəvi iqtisadi vəziyyətə rəğmən, heç kəs bundan sui-istifadə etmədi. Parlament seçkilərinin keçirilməsini bu halda tələb etmək düzgün deyil. Seçki sistemi özü pis gündədir. Amma istənilən demokratik təşəbbüs alqışlanmalıdır".

**AzDP sədri Sülhəddin Əkbər** isə işsizlikdən, ümumi daxili məhsulun azalmasından, manatın nominal olaraq iki qat dəyərsizləşməsi kimi problemlərdən danışıb və bildirib ki, əhalinin real gəlirlərinin azalması səbəbindən maliyyə böhranı sosial-iqtisadi böhrana keçib: "Manat 2-ci devalvasiyaya uğrayandan sonra yaranmış durum, hakimiyyətin addımları böhrana hazır olmadığını göstərdi. Belə davam etsə, yanaşma dəyişməsə, dərinləşməkdə olan böhran sosial-siyasi böhrana keçəcək. Zamanla bu, qaçılmaz olacaq".

Onun sözlərinə görə, tezliklə növbəti devalvasiya gözlənilir: "Hələ ki, cəmiyyətin hakimiyyətdən gözləntisi var. Növbəti devalvasiyadan sonra isə bu, olmayacaq. Bundan sonra cəmiyyətin hakimiyyətdən əlini üzməsi fazası başlanacaq. Biz dinc olmayan vəziyyətə, dəyişikliklərə də hazır olmalıyıq. Müxalifət dəyişikliyə hazır olmalıdır və cəmiyyətimizi də hazırlamalıyıq".

**VİP sədri Əli Əliyevə** görə, hakimiyyət ölkəni Suriyaya çevirəcək: "Biz bunun təhlükəsini görürük. Parlamentdə bir nəfər müxalifət təmsilçisi qalmayıb. Azərbaycan maliyyə böhranına soxulduqdan sonra narazılıqlar Azərbaycan dövlətini əlimizdən ala bilər. Bundan narahatıq. Azərbaycanın normal demokratik yollarla dəyişdirilməsinin tərəfdarıyıq".

**AXP təmsilçisi Qiyas Sadıqov** isə bildirib ki, hakimiyyət dialoqa hazır deyil: "Bu, 2015-ci ildə də belə olub, indi də belədir. Bu dialoq məsələsini geniş şəkildə müzakirə etmək lazımdır. Hökumət xaosun qarşısını almağa çalışmalıdır. Biz düşmüşük hakimiyyətin dalınca ki, sizə təklif veririk. Hakimiyyət bizə deməlidir ki, gəlin, bizə dəstək verin. Biz niyə etməliyik ki? Biz özümüzün nə etməli olduğumuzdan danışmalıyıq. Xalq hərəkatını yaratmağa çalışmalıyıq, çoxalmağa, birləşməyə çalışmalıyıq".

**"AĞ blok"un təsisçilərindən biri Tural Abbaslı** isə qeyd edib ki, müxalifət dialoq təklifi etməkdənsə, hakimiyyətin istefasını tələb etməlidir: "İstefa tələb etməliyik. Bunun alternativi yoxdur. Hakimiyyət dialoqu başa düşən deyil. Heç bir islahata könüllü gedən deyil. On illər boyu oğurluq edənlərə yeni dönəm çətindir, bununla islahat mümkün deyil".

**ADP sədri Sərdar Cəlaloğlu** cəmiyyətin hər tərəfində parçalanmaların olduğunu vurğulayıb. Onun sözlərinə görə, Azərbaycan Suriyanın gününə salına bilər: "Bu, realdır. Rusiya Azərbaycanla müharibəyə hazırlaşır, bunu artıq politoloqları bildirirlər. Azərbaycan müxalifəti Azərbaycan iqtidarı deyil. Biz təşkilatlanmalıyıq. İşçi Qrup yaradılıb, biz böhranla bağlı problemləri, məsələləri müzakirə edirik".

**KXCP sədri Mirmahmud Mirəlioğlu** isə çıxışında qeyd edib ki, müxalifət hər iki toplantıda səslənən antiböhran təkliflərini geniş şəkildə müzakirə edib toplayacaq və proqram halında açıqlanacaq. O, bu cür müzakirələrin davamlı olmasının vacibliyini vurğulayıb. Həmçinin qeyd edib ki, müxalifətin imicinin zədələnməsi barədə səslənən fikirlər doğru deyil. Müxalifət məhz o cür olmadığından, ölkənin böhrandan çıxmasını istəyir və bu yöndə hökumətə təkliflər verir.

Digər çıxış edənlər də müxtəlif təkliflər səsləndiriblər. Təkliflərin nəzərə alınacağı və İşçi Qrup tərəfindən müzakirə olunacağı bildirilib.

Əlavə edək ki, müxalifət partiyalarının bir hissəsi yanvarın 24-dən antiböhran tədbirləri keçirərək ölkənin böhranlı vəziyyətini müzakirə etməkdədir. Artıq bu istiqamətdə yaradılan İşçi Qrup bir neçə müzakirə keçirib. Müzakirələr mətbuata qapalıdır. Birinci toplantılarda səslənən fikirlər və təkliflərin hələ müzakirəsi davam edir. Bununla bağlı yaradılan İşçi Qrupun çoxsaylı təklifləri müzakirə edərək sonunda hökumətə göndərməsi gözlənilir. Antiböhran koalisiyasının son toplantısında ölkədə "Böhran masaları"nın yaradılması da qərara alınıb.

❑ **Röya RƏFİYEVA**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT
N 41 (6362) 22 fevral 2016

# Ankara faciəsi Türkiyə səfirliyini nədən ziyarətgaha çevirmədi?





**Mehriban Vəzir:** "Azərbaycanda insanların tənhalaşma prosesi gedir"

**Xəzər Teyyublu:** "Biganəlik qorxudan irəli gəlir"

**Fevralın 17-də Türkiyənin paytaxtı Ankarada törədilən terror faciəsindən sonra bir sıra diqqətçəkən məqamlar ortaya çıxdı. Belə ki, baş verən terror aktının acısını Azərbaycan xalqı sanki qəlbində çəkdi. Qardaş ölkənin Azərbaycandakı səfirliyinin önü ziyarətgaha çevrilmədi.**

Ankarada 4 ay öncə baş verən faciə ilə indiki hadisəyə münasibətdə ölkəmiz acısından ciddi fərqlər meydana çıxdı. Əgər ötən ilin oktyabrında baş verən Ankara terrorunda ölkəmizin sadə vətəndaşları, siyasi qurumlar Türkiyənin Azərbaycandakı səfirliyinin önündə faciə qurbanlarını yad etsələr də, indi tamam bunun əski baş verdi.

Təsadüfi deyil ki, indiyə qədər yalnız NİDA Vətəndaş Hərəkatı qardaş ölkənin Azərbaycandakı səfirliyini ziyarət edib, binanın önünə qərənfillər düzüblər. Xalqımızda faciəyə biganəliyin nədən yarandığı müəmmalı olaraq qalmaqdadır. Bəzi ekspertlər hesab edir ki, buna səbəb hazırda Azərbaycanda cərəyan edən iqtisadi böhrandır.

Yazıçı-publisist Mehriban Vəzir siyasi partiyaların ziyarət üçün Türkiyə səfirliyinə müraciət etdiklərini bildirdi: "Sosial şəbəkələrdə NİDA Vətəndaş Hərəkatının ziyarətini mən də gördüm. Eyni zamanda siyasi qurumların ziyarət üçün Türkiyə səfirliyinə müraciət etdiyini də eşitdim. Hər hansı bir gündə səfirliyin tədbir təşkil edib-etməyəcəyi ilə maraqlanıblar. Səfirlikdən cavab veriblər ki, elə bir tədbirimiz yoxdur, olarsa, sizə xəbər verəcəyik. Proses bu şəkildə olub. Amma belə məsələlərlə bağlı ictimai proseslər baş vermir. Hər kəs faciəni öz qəlbində yaşayır. Bu gün Azərbaycanda insanların tənhalaşma prosesi gedir. Mənimlə küçədə, evdə və digər yerlərdə söhbət edən şəxslər Türkiyə ilə yaxından əlaqələri olan insan kimi, məndən faciə ilə bağlı təəssüflərini, təəssüratlarını bölüşürlər. Sual verirlər ki, niyə Türkiyənin başına bu oyunlar gəlir? Hətta onu da deyirlər ki, güclü dövlətlər nə üçün Türkiyənin əleyhinə çıxırlar. Yəni fikirlərini bu şəkildə ifadə edirlər. İnsanların fərd olaraq, bu hadisə ilə bağlı ürəkləri yanır, qardaş ölkə ilə həmdərdilər. Amma bunu təkликdə ifadə edirlər. Birlikdə ifadə etməyə ehtiyac olsa da, bu həyata keçirilmir. İnsanlarımız tənhalaşıb, özlərinə qapanıblar. Ölkədə iqtisadi böhranla, eləcə də dünyada gedən proseslərlə bağlı çox üzülürlər. Bu üzüntüləri birlikdə ifadə etmək gücü yoxdur. Ölkəmizdə o şərait də yoxdur. Gedən ictimai-siyasi proseslər insanları tənhalaşdırıb, dərdlərini təkbaşına çəkməyə öyrədib. İqtisadi böhranla bağlı səfalət içində yaşayan insanlar sonda intihar yolunu seçirlər. İntihar təkliyin, köməksizliyin nəticəsidir. Çünki o, bilir ki, kimə əl uzatsa, ona yardım edən olmayacaq. Dediyiniz Türkiyə məsələsi də bununla bağlıdır".

KXCP sədrinin müavini Xəzər Teyyublu ölkənin gələcəyi ilə bağlı vətəndaşlar arasında biganəliyin olmasından şikayətləndi: "Azərbaycanda siyasi məsələlərə o qədər basqı olub ki, insanlar nəyəsə münasibət bildirməyə qorxurlar. Türkiyə məsələsi də bu silsilədəndir. Amma qeyd etmək lazımdır ki, bir sıra siyasi qurumlar Türkiyə səfirliyinə, qardaş ölkəyə başsağlığı verdilər. Lakin qənaətbəxş addımlar deyil. Azərbaycanda iki dəfə devalvasiya baş verib. Amma vətəndaşlarımız dözürlər. Hazırda ölkədə faciələrə olan biganəlik qorxudan irəli gəlir".

❑ Cavanşir ABBASLI

# Maydanın 2-ci ildönümü - Ukrayna Gürcüstan kimi demokratiya yoluna niyə çıxa bilmədi?

## Elxan Şahinoğlu səbəblərdən danışdı; Azərbaycanın çıxaracağı nəticə də var...



**Ukrayna səfirliyində Maydan hərəkatının ikinci ildönümü və həmin hadisələrdə həlak olanların anım mərasimi keçirilib. Mərasimə "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu da qatılıb. Mərasimdə Maydan hadisələrindən bəhs edən iki qısa film nümayiş olunub. Biri hərəkatın necə başlandığına dair, digəri isə Putinin "Rusiya hərbçiləri Ukraynada varmı" sualına 3 ildə verdiyi fərqli və ziddiyətli cavablar barədə olub.**

E.Şahinoğlu çıxışında Maydan hərəkatının anatomiyası, o cümlədən Ukraynada separatizmin hansı şəraitdə və kimlər tərəfindən dəstəklənməsindən danışıb. 2014-cü ildə Kiyev və Donetskdəki apardığı müşahidələri haqqında yazdığı kitabdan bəzi sitatlar gətirib.

Maydan hərəkatının ikinci ildönümün təntənəli şəkildə keçirildiyi Ukraynada isə hadisələrinin son nəticədə Ukraynaya nələri gətirdiyi barədə geniş diskussiyalarla müşahidə olunur. Fərqli yanaşmaların olduğu ortadadır.

Bəziləri iddia edir ki, xalqın hərəkatdan gözləntiləri, ümidləri heç də tam olaraq reallaşmayıb. Diqqəti ən çox cəlb edən mövqeyi isə Gürcüstanın sabiq prezidenti Mixail Saakaşvili ortaya qoyub. Saakaşvili bildirib ki, Maydan hərəkatı Gürcüstanda vaxtilə baş vermiş "Qızılgül inqilabı"nın verdiyi effekti verməyib. "Gürcüstandakından fərqli olaraq Ukraynada inqilab nəticəsində iş başından uzaqlaşdırılmış bir oliqarxik rejimi başqa bir oliqarxik rejim əvəzləyib. Ona görə də Ukraynada xalqın inqilabdan gözləntiləri reallaşmır" - iddia edib eks-prezident.

Mixail Saakaşvilinin bu bəyanatının xeyli dərəcədə haqlı olduğunu Ukraynadakı prosesləri yaxından birbaşa izləmiş və bu ölkəni dərindən bilən Elxan Şahinoğlu da qeyd etdi: "Maydan hadisələri başlayandan sonra mən ən azı 5-6 dəfə Ukraynada oldum. İlk dəfə 2014-cü ilin aprelində oldum. O zaman artıq Viktor Yanukoviç ölkədən qaçmış və inqilab baş vermişdi. Amma ən həlledici ay məhz aprel ayı idi. Artıq aprel ayında xəbərlər gəlirdi ki, Xarkovda, Dnepropetrovskda, Odessada rusprərəstlər mitinqlər, yürüşlər təşkil edir. Hələ o zaman Rusiya proseslərə açıq-aşkar müdaxilə etmirdi. Mən Donetskə getdim və bu şəhər bir idarəolunmaz şəhər təəssüratı yaradırdı. Şəhərdə nə milis var idi, nə şəhəri kimin idarə etdiyi bəlli idi. Separatçıların ələ keçirdiyi bir neçə binanın ətrafında oldum və o zaman mənə bəlli oldu ki, bu şəhər artıq əldən gedir. Mən orada olan dostlara bildirdim ki, Kiyev böyük bir səhvə yol verir, vaxtilə biz bunu yaşamışıq, siz bu səhvi təkrarlamayın. Ukraynanın başı Maydan hərəkatına qarışmışdı, Rusiya isə qeyd etdiyim şəhərlərdə öz işini görməkdə idi və bunu Ukraynanın yeni hakimiyyəti fikir vermirdi. Səhvlər bax ilk günlərdən bu cür başlanmışdı.



Elxan Şahinoğlu

Ukraynadakı o zamankı müvəqqəti hökumətin yeganə uğuru o oldu ki, separatçılığın Donetsk və Luqanskdan içərilərə doğru yayılmasına imkan vermədi. Putin Ukraynanı iki bərabər hissəyə parçalamaq və hisslərdən birini ələ keçirmək istəyirdi. Maydanın yeganə uğuru bu layihənin alınmasının qarşısını almaq oldu. Sonrakı hadisələrə baxsaq görərik ki, yeni hökumət uğurları möhkəmləndirə bilməyib. Amma burda bir məsələ var ki, Ukraynanın üzləşdiyi ağır çətinlikləri nəzərə almaq lazımdır. Krım işğal olunub, Donbas separatçıları Ukraynaya tabe olmur, ölkə iqtisadiyyatı hələ inqilabdan öncə darmadağın olunmuşdu və Ukrayna Rusiya qazından asılıdır. İndiki Arsen Yassenyuk hökumətinin ən böyük uğuru Ukraynanın Rusiya qazı olmadan da yaşaya bilməsini dünyaya sübut etmək oldu. Ən böyük uğursuzluğu da islahat həyata keçirə bilməməsidir. Buna oliqarxların da təsiri var. Prezident bu yaxınlarda prezident Yassenyukun getmək vaxtının çatdığına işarə etdi. Amma səsvermədə əksəriyyət yenə Yassenyuka səs verdi. Oliqarxlar Yassenyuku qoruyurlar, bir sövdələşmə var. İslahatlara bu faktorun imkan vermədiyini Saakaşvili də, prezident də dilə gətirir".

E.Şahinoğlu onu da dedi ki, Yassenyukun xalq arasında ciddi reytinqi yoxdur: "Onun rəhbərlik etdiyi Həmrəylik Partiyası bələdiyyə seçkilərinə zəif olduğu üçün qatılmadı. Düşünürəm ki, Yassenyukun vəzifədə sayılı günləri qalıb və Saakaşvili bu məsələdə haqlıdır. Ukraynanın çox məhsuldar torpaqları var. Ciddi islahatlara həyata keçirməyi bacaran baş nazir, hökumət ölkənin iqtisadiyyatını ayağa qaldıra bilər. Ukraynanın imkanları Gürcüstanın imkanlarından çoxdur. Sadəcə olaraq, Ukraynanın Maydan hərəkatı dövründəki vəziyyəti Gürcüstanın "qızılgül inqilabı" dövründəki vəziyyətindən daha ağır idi. Düzdür, Rusiya inqilabdan 4 il sonra Gürcüstana da qoşun yeritdi. Lakin əslində onsuz da Abxaziya və Osetiya hələ 1990-cı illərdən Gürcüstana tabe deyildi. Bu baxımdan onları itirmək Gürcüstan üçün böyük itki olmadı. Gürcüstanın əhalisi də az idi və bu əhalini normal yaşatmaq üçün böyük resurslar tələb olunmurdu. Amma Ukraynanın inqilabdan sonra itirdiyi ərazilər də böyük idi, əhalisinin də sayı Gürcüstanın əhalisindən 20 dəfə çoxdur. Ona görə problemləri qısa zamanda həll etmək, ölkəni normal relsə salmaq Gürcüstandakı qədər asan deyil. Ukraynaya beş-on il lazımdır ki, siyasi və iqtisadi sabitlik öz yerinə otursun. Qərb bu məsələdə Ukraynaya öz dəstəyini artıracaq. Rusiya Ukraynanın inkişafına imkan verməməyə çalışacaq. Amma Qərbin də dəstəyi ilə Ukrayna inkişaf və sabitlik dövrünə qədəm qoyacaq".

Ekspert onu da vurğuladı ki, M.Saakaşvili Odessanın qubernatoru olaraq çox uğurlu fəaliyyət göstərir. Odessada islahatlar həyata keçirilir. Saakaşvili bu prosesi bütün Ukraynaya yaya bilər: "O, bu işləri bütün Ukrayna miqyasında həyata keçirmək istəyir. Artıq Ukrayna vətəndaşlığı da alıb. Onun baş nazir olması da istisna deyil. Baş nazir olması üçün o ya hansısa partiyanın üzvü olmalıdır, ya da özü hansısa hərəkat yaratmalıdır və ya prezident Poroşenko özünün parlamentdəki blokuna üzv elətdirməlidir. Məhz bundan sonra onun baş nazir vəzifəsinə namizədliyi irəli sürülə bilər. Təxminən iki-üç il ərzində Odessada Saakaşvili böyük uğurlar qazansa, Odessanın inkişafı hamı üçün nümunə olsa, Saakaşvilinin baş nazir olmaq şansları artacaq".

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 41 (6362) 22 fevral 2016



# Əfv Komissiyasının tərkibi dəyişdi - gözləntilər də dəyişəcəkmi?

## Əvvəlki heyət üzərində qurulan təzə tərkibdə yeni isimlər var; Elmira Süleymanova komissiyadan kənarda qaldı

**Prezident İlham Əliyev Əfv Komissiyasının yeni tərkibinin təsdiq edilməsi ilə bağlı sərəncam imzalayıb. Sərəncama əsasən, əvvəlki heyətdən ibarət olan qurumun yeni tərkibində 6 yeni simanın da adı var. Ombudsman Elmira Süleymanova yeni tərkibdə təsdiqlənməyib.**

Əfv Komissiyasında yer alan yeni üzvlər Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov, Milli Məclisin Elm və təhsil komitəsinin sədr müavini, deputat Bəxtiyar Əliyev, Azərbaycan Yazıçılar Birliyinin katibi, Azərbaycan Mətbuat Şurasının İdarə Heyətinin üzvü Rəşad Məcid, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini Aynur Sofiyeva, "Konstitusiya" Araşdırmalar Fondunun rəhbəri Əliməmməd Nuriyev, Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin sədri Mehdi Mehdiyevdir.

Əfv Komissiyasının öncəki tərkibində üzv kimi yer almış şəxslər Hüseyn Cavidin xatirə muzeyinin direktoru olmuş Turan Cavid, xalq şairi Zəlimxan Yaqub, xalq yazıçısı Vaqif Səmədoğlu, Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun direktoru Ağamusa Axundov, Azərbaycan Elmi Tədqiqat Pedaqoji Elmlər İnstitutunun direktoru, sabiq deputat Zahid Qaralov vəfat ediblər.

İnsan Haqları üzrə Birgə İşçi Qrupunun üzvü, **hüquq müdafiəçisi Novella Cəfəroğlu** QHT nümayəndələrinin də Əfv Komissiyasına salınmasının müsbət olduğunu bildirdi: "QHT-lərdən Əliməmməd Nuriyev yeni tərkibdə var. Çox dəyərli insandır. Ümid edirəm ki, onun köməkliyi ilə çox işlər görə bilərik. Əfv Komissiyasında yuxarı orqanlardan olan şəxslər yenidən qurumun üzvü kimi qalıblar. Sadəcə, bir neçə yeni deputat var. Keçmiş üzvlərdən biri rəhmətə getdi. İndiyə qədər komissiyasının bir çox üzvü ilə görüşlərimiz olub. Bu qurum çox vacibdir. Çox məhbusun doğrudan da məsələsini həll edə bilirik. Amma bildiyiniz kimi, istədiyimiz əfvi yalnız bir şəxs verə bilər. O da cənab prezidentdir. Siyasi məhbusların qərarı yalnız ölkə başçısına məxsusdur. Ona görə də, daim biz prezidentə müraciət edirik".

Komissiyanın yeni üzvlərinin də fikirlərini aldıq. **Hüquqşünas Əliməmməd Nuriyev** ölkə başçısı tərəfindən ona ən böyük etimadın göstərildiyini qeyd etdi: "Bu etimad həm də böyük məsuliyyət yaradır. Prezidentin əfv hüququnun həyata keçirilməsində iştirak edəcəm - digər üzvlərlə birlikdə.



**Novella Cəfəroğlu:**
**"İstədiyimiz əfvi yalnız bir şəxs verə bilər"**



**Əliməmməd Nuriyev:**
**"Onlarla birlikdə işləmək diqqət tələb edir"**



**Rəşad Məcid:**
**"Böyük etimaddır"**

Məhkumlarla bağlı bir sıra işlərin həyata keçirilməsində iştirakım olacaq. Çünki komissiyanın hər bir üzvü bu və ya digər formada fikirlərini bildirir. Əfv Komissiyası indiyə qədər çox səmərəli fəaliyyət göstərib. 60-dan artıq əfv sərəncamı imzalanıb. Bunun nəticəsində minlərlə insan azadlığına qovuşub. Bu həm də məhbuslara şans vermək imkanıdır. Hər bir məhbusla bağlı müzakirədə öz töhfəmi verməyə çalışacam. Əfv Komissiyasının üzvləri sırasında Azərbaycanın görkəmli dövlət, ictimai-siyasi xadimləri var. Onlarla birlikdə işləmək diqqət tələb edir. Onların çoxları əvvəllər də komissiyanın üzvləri olublar. Bu baxımdan onların təcrübələrindən yararlanmağa çalışacam. Bu mənim üçün çox vacibdir. Baxmayaraq ki, hüquqşünasam, məhkumlarla işləyən şəxslərdən biri olmuşam, Ədliyyə Nazirliyinin yanında İctimai Komitənin üzvü kimi çalışmışam, amma hesab edirəm ki, bu tam başqa müstəvidir. Burada qərarların qəbuluna daha çox diqqət ayrılır. Eyni zamanda balansı qorumaq lazım gəlir. O balans ki, bir çox məhbus azad olunarkən, həm də zərərçəkmişin mövqeyini nəzərə almaq lazım gəlir. Ölkənin milli təhlükəsizliyi də burada diqqət tələb edir. Burada bir çox maraqların toqquşması var. Əsas iş odur ki, ədalətli olasan. Səs verəndə, fikir söyləyəndə bu nüanslar nəzərə alınmalıdır. Bunlara uyğun olaraq, fəaliyyətimi quracağam".

Komissiyanın yeni üzvü siyasi məhbuslar məsələsinə də toxundu: "Bir çox şəxslər var ki, onlarla bağlı Əfv Komissiyasına müraciətlərdə pozitiv qərarların qəbul edilməsi xahiş olunub. Amma nəzərə alaq ki, komissiya kollegial qurumdur. Bu və ya digər şəxslə bağlı sadəcə fikrini bildirir. Son söz prezidentin qərarıdır. Ölkə başçısı daim söyləyir ki, o, hər kəsin prezidentidir. İndiyə qədər verilən əfv sərəncamları onu göstərir ki, o, hər kəsin prezidentidir. İnanıram ki, proses eyni qaydada davam edəcək. Bir çox şəxslərin prezidentin sərəncamı ilə azadlığa qovuşacaqlarına inanıram".

**Rəşad Məcid** isə, onun namizədliyini irəli sürən şəxslərə təşəkkür etdi: "Sərəncama görə, cənab prezidentə minnətdarlığımı bildirirəm. Bu, böyük etimaddır. Əfv Komissiyasının qərarlarına ictimaiyyətin daim marağı olub. Özüm media işçisi kimi, hər əfv sərəncamında ictimaiyyətin həssas münasibətinin şahidi olmuşam. Bu mənada belə bir komissiyada təmsil olunmağı böyük etimad hesab edirəm. Eyni zamanda bunu böyük məsuliyyət sayıram. Mənə göstərilən böyük etimada layiqincə cavab verəcəm. Açığı, mənim üçün böyük sürpiz oldu. Belə bir komissiyada təmsil olunacağım barədə xəbərlər eşidəndə təəccübləndim. Bu etimadı doğrultmağa çalışacam".

❑ **Cavanşir ABBASLI**

# Bankların reytinqi aşağı salınır - proqnozlar bədbindir...

## Ekspertlərin fikrincə, Azərbaycanın kredit reytinqinin "spekulyativ" səviyyəyə endirilməsi borclanmada əngəl yaradacaq...

**Beynəlxalq reytinq agentlikləri Azərbaycan banklarının reytinqi ilə bağlı bədbin proqnozlar verir. Həmçinin, bankların reytinqi kəskin şəkildə aşağı slanıb. "Fitch Ratings" beynəlxalq reytinq agentliyi fevral ayının 26-da Azərbaycanın kredit reytinqinə yenidən baxmağı planlaşdırır. Bunu "Sberbank Investment Research"in analitikləri bildiriblər.**

"Standard & Poor's" (S&P) agentliyi isə yanvar ayının 29-da Azərbaycanın kredit mövqeyini bir pillə "BB+" qədər endirib. "S&P" Azərbaycanın yerli və xarici valyutada uzunmüddətli kredit reytinqini "BBB-" səviyyəsindən "BB+" səviyyəsinə endirib.

Qeyd edək ki, bu, "spekulyativ", yaxud "tullantı" səviyyə sayılır. Agentlik bildirir ki, səbəb neftin ucuzlaşması və xarici valyuta ehtiyatlarının azalmasıdır. Yerli və xarici valyutada ölkəmizin qısamüddətli reytinqi "A-3" səviyyəsindən "B" səviyyəsinə endirilib. Hesabatda bildirilir ki, buna səbəb neftin ucuzlaşmasıdır. "Bununla da agentlik tərəfindən Azərbaycana reytinq verilən müddət ərzində ilk dəfədir ki, reytinq aşağı salınır",- deyə analitiklər xatırladır.

"Moody's" isə fevralın 5-də Azərbaycanın kredit reytinqini "Ba1" pilləsinə qədər azaldaraq onu gələcəkdə də mövqeyinin endirilə biləcək mövqeyə yerləşdirib. Qeyd edək ki, bu qərar neftin qiymətini ucuzlaşmasının ölkə iqtisadiyyatına mənfi təsirinin nəticələri və onun maliyyə sabitliyi ilə şərtləndirilir.

Reytinqin aşağı düşməsi iqtisadiyyatda kəskin çökmə




və büdcə ödəmələrinə, eləcə də ödəmə balansına təzyiq nəticəsində meydana gəlib. Ehtimal edilir ki, o da Azərbaycanın reytinqini (hazırda reytinq "BBB"dir) azaldacaq. "Fitch"in bunu planlaşdırdığı zamandan öncə edəcəyi də istisna deyil.

Həmçinin, "Standard & Poor's" bildirib ki, yaxın perspektivdə Azərbaycanın bank sektorunun strukturu dəyişilməz olaraq qalacaq. Agentliyin analitikləri bunu Azərbaycan hökumətinin bank sektoruna zəruri dəstəyin göstərməyə hazır olması ilə əlaqələndiriblər: "Hazırkı vəziyyət bankların sayının azalmasına səbəb ola bilər. Lakin bankların sayının azalması bank sektorunda rəqabətə təsir etməyəcək". Bildirilir ki, bankların aktivlərinin keyfiyyəti pisləşməkdə davam edəcək: "Bu isə bankları daha böyük ehtiyatlar yaratmağa məcbur edəcək. Bu isə, öz növbəsində, kapital bazasının azalmasına gətirəcək".

**Ekspert Əkrəm Həsənov** isə məsələ ilə bağlı musavat.com-a bildirib ki, reytinqin düşməsi banka etibarın azalması deməkdir: "Reytinq ölkənin borclarını ödəmək qabiliyyətindən xəbər verir. Reytinqin düşməsi etibarın azalması və dövlətin borclarını vaxtında ödəmək qabiliyyətinə şübhələrin artması deməkdir. Neft gəlirlərimizin azalması borclarımızı tam və ya vaxtında ödəyə bilməyəcəyimiz təhlükələri yaradır. Bu, o demək deyil ki, bizə heç kəs kredit verməyəcək. Sadəcə, risk artdığı üçün faiz dərəcəsi də yüksək olacaq. Ümumən gözlənilən bir şeydir, iqtisadi böhran içindəyik, belə də olmalı idi".

Yerli ekspertlərin fikrincə, Azərbaycanın kredit reytinqinin "spekulyativ" səviyyəyə endirilməsi borclanmada maneə yaradacaq. Ekspert Rəşad Həsənovun sözlərinə görə, kredit reytinqinin aşağı salınması gözlənilən idi: "Hesab edirəm ki, digər agentliklər də bundan sonra Azərbaycan üçün kredit reytinqini aşağı salacaqlar. Bu, təbii prosesdir və heç bir ikili standartdan söhbət gedə bilməz. Risklər artdıqca, kredit reytinqi aşağı düşməlidir. Bunun Azərbaycan üçün mənfi tərəfi ondan ibarətdir ki, bundan sonrakı borclanmalarda daha çox tələblərlə üzləşəcəyik. Eyni zamanda müddət məsələsində də ölkəmiz çətinliklərlə üzləşə bilər və daha bahalı faizlərlə borclanacağıq".

**Ekspert Natiq Cəfərli** reytinqin aşağı salınmasına münasibət bildirərkən deyib ki, bu, o deməkdir ki, ölkəyə investisiya qoymaq olmaz: "Ölkə borc alsa, çox yüksək faizlə almalıdır, yəni, iqtisadi dayanıqlıq yoxdur. Agentliyin proqnozuna görə, Ümumi Daxili Məhsul və valyuta ehtiyatları azalacaq, bank sektorunda vəziyyət gərginləşəcək. Milli valyutaya basqılar da artacaq. S&P-dən sonra "Moody's" və "Fitch" də Azərbaycanın reytinqini azaldacaq. Hökumətin borc alaraq vəziyyətdən çıxmaq və neftin qiymətinin qalxmasını gözləmək kimi bəsit planı da suya düşür".

Ekspertlər vurğulayır ki, aşağı kredit reytinqləri ölkəyə investisiya cəlbini çətinləşdirəcək. Bu, investisiya riskinin yüksək olması deməkdir. Xüsusən xarici investorların Azərbaycanın bank sektoruna cəlbinə mənfi təsir göstərəcək. Reytinqin düşməsini görən xarici investorlar bank sektorundan öz vəsaitlərini geri çəkə bilərlər.

❑ **RÖYA**



# Test əks-inqilabı baş tutacaqmı?

Xalid KAZIMLI

**Bizim təhsil sferamız niyə bərbad gündədir, bilirsinizmi, əziz oxucular? Ona görə ki, 25-30 il öncə rüşvətlə ali məktəblərə daxil olan, ölüm-zülüm oxuya-oxuya ali məktəbi bitirən minlərlə şəxs artan yaşları üzrə inkişaf edərək gəlib məktəb direktoru, dərs hissə müdiri olublar. Həm rüşvətxordurlar, həm də bisavad.**

Hüquq sahəsindəki əyintilərin, pozuntuların, neqativ halların başlıca səbəbi da budur. Sovet dövründə hüquq fakültəsindəki məhdud yeri 30-50 min manata alan və ya yüksək vəzifəli atasının, əmisinin, dayısının tapşırığı ilə icarəyə götürən yüzlərlə adam gəlib prokuror, hakim, rəis olublar. Universitetə rüşvətlə girən, rüşvətlə oxuyan adam kristal və prinsipial hüquqşünas olacaqdımı?

Hər kəs ölkədə yaxşı həkimlərin az olmasından, ona görə də hamının öz dərdinə əlac tapmaq üçün İrana, Türkiyəyə getməsindən danışır. Yaxşı həkimlərin az olmasının səbəbi də sovet dövrünün axır illərində "leçfak"a (müalicə-profilaktika fakültəsi) qəbulun böyük rüşvətlər hesabına baş tutmasıdır. Bisavad övladını ağ xalatlı həkim görmək istəyənlərin xudbinliyi üzündən bisavad züryət-həkimlər minlərlə sağalası xəstəni ağ kəfənə bürüdülər.

Başqa sahələrdəki bərbad vəziyyət də sovet dövrünün təhsil sisteminin tam olaraq korrupsiya bataqlığına gömülməsi (ən azı Azərbaycanda) üzündəndir. Bunu heç cür danmaq olmaz. Bugünkü kütləvi bisavadlıq öz qaynağını ordan götürür. 1975-ci ildən ta 1992-ci ilə qədər ölkədə yüz minlərlə bisavad adam ali təhsil haqqında diplom aldı, məzun oldu və indi ölkənin idarə edilməsində mühüm rol oynayırlar.

1992-ci ildə isə inqilab baş verdi. O inqilab heç də milli-azadlıq hərəkatının lideri Əbülfəz Elçibəyin hakimiyyətə gəlməsi deyildi, əsl inqilab Elçibəyin, Furidun Cəlilovun və Vurğun Əyyubun rəhbərlikləri ilə həyata keçirilən "test inqilabı"ydı.

Həmin il minlərlə kasıb gənc qara qəpik ödəniş etmədən, rüşvət vermədən ölkənin ən yaxşı ali məktəblərinin ən yaxşı fakültələrinə qəbul olundular. Əgər Elçibəy hakimiyyətə gəlməsəydi və dərhal da "test inqilabı"na qol qoymasaydı, o gənclər arzuladıqları ixtisaslara yiyələnə bilməyəcəkdilər, sadəcə, pulları çatmayacaqdı. Onların yerini isə yağ içində böyrək kimi bəslənmiş harın və bisavad balalar tutacaqdı.

Düzdür, o bisavad harınlar öz ölkəmizdə ali məktəblərin prestijli fakültələrinə daxil ola bilmədilər, amma bir yol tapdılar, gedib Moskvada, Kiyevdə, Minskdə, Sankt-Peterburqda və digər şəhərlərdə böyük pullar hesabına yaxşı universitetlərə daxil oldular, sonra bir xeylisi köçürmə yoluyla Bakıya qayıtdı və sonda zəhmətiylə təhsil alanlarla birlikdə diplom əldə etdilər. İndi yenə yağlı vəzifələrdə məhz onlardır - "xaric"də oxuyanlar.

Londondakı, Parisdəki ali məktəblərə dadanma mərhələsi sonrakı illərdə oldu. Öz ölkəsində 500-600 bal toplaya bilməyən varlı balalar hansı yollarlasa Avropa universitetlərini diplomlarını aldılar.

İndi budur, beyin qırışları məhdud olan gənclərin maneəsiz olaraq öz ölkəmizdə ali məktəblərə daxil olması üçün test üsulu ilə qəbulun ləğvinə çalışanlar var. Bu artıq neçənci cəhddir. Ancaq bu cür təşəbbüslər həmişə xalq tərəfindən böyük hiddətlə qarşılanıb və hakimiyyət rəhbərləri bu işə qol qoymayıblar.

Bəlkə də bu ölkədə ciddi sosial partlayış yarada biləcək yeganə amil test üsulunun ləğvi ola bilər. Xalq bu məsələdə çox həssasdır. Hər il on minlərlə valideyn övladının rüşvətsiz-filansız ali məktəblərə qəbul olunmasından qürur duyur, rahatlıq tapır.

Bununla belə, görünür, ali məktəbələrə qəbul sahəsindəki alınmayan, toplanmayan rüşvətlər bəzilərinə rahatlıq vermir. Bu işdə böyük pullar var. İndiki məzənnə ilə bəlkə də 10 milyard dollar pul batır.

Deyilə bilər ki, indi də valideynlər repetitorlara pul ödəyirlər və bu da abituriyentin iki il ərzində 4-5 min manat vəsait xərcləməsi deməkdir.

Elədir, valideynlər boğazlarından kəsir, övladlarına ələvə dərs keçən müəllimlərə ödəniş edirlər. Amma əvəzində o uşaqlar savad alır. Əsas məsələ də budur: savad, təhsil, bilik.

Ümid edək ki, test üsulunun ləğvi kimi avantüra bu dəfə də baş tutmayacaq.



# Rəsul Quliyevin ittihamlarına reaksiyalar gəldi

**Amerikada mühacir həyatı yaşayan sabiq spiker Rəsul Quliyev son günlərdə Facebookda sual-cavab şəklində yayılan videoları ilə gündəmi zəbt edib. Eks-spikerin özçəkim janrında olan son videosunda səsləndirdiyi fikirlər aranı qarışdırıb.**

R.Quliyev Azərbaycanda müxalifətin olmadığını iddia edərək, AXCP-dən ibarət olan Milli Şuranın ünvanına ağır ittihamlar səsləndirib. O, Milli Şura adlanan qurumun mövcud olmadığını bildirib. Fikirlərini eks-spiker belə əsaslandırıb: "Bu qurum 2013-cü ilin prezident seçkilərindən sonra süqut edib. AXCP-dən ibarət olan Milli Şura Azərbaycanda müxalifətin olmadığını icazəli mitinqlərə çıxardıqları insanlarla sübut etdilər. Metronun yaxınlığındakı stadionda 2 minlik mitinqlə başladılar və 300 iştirakçı ilə aksiyaları başa vurdular. Mitinqləri yarım saat gec başlayır və yarım saat da tez başa vururdular. Çünki insanlar sona qədər qalmırdılar".

R.Quliyev Milli Şuranın sədri Cəmil Həsənlinin 2013-cü ildəki prezident seçkilərindən sonra özünün 65% səslə qalib gəldiyini elan etməsinin xarici aləmdə ikrah doğurduğunu bildirib. Parlamentin keçmiş sədri İsa Qəmbər, Əli Kərimli və Cəmil Həsənlinin bacarıqlarına bələd olmadığını, bu şəxslərin liderlik rolunu oynayacaqlarına şübhə etdiyini söyləyib.

Səslənən ciddi ittihamlarla bağlı ölkə müxalifətinin mövqeyini aldıq.



**Sərdar Cəlaloğlu:** "Dünyanın heç bir yerində bizim qədər müxalifətçilik edən qüvvələr yoxdur"



**Gülağa Aslanlı:** "Rəsul Quliyev bitmiş siyasətçidir"

ADP sədri Sərdar Cəlaloğlu bildirdi ki, Rəsul Quliyev bəzi vaxtlarda reallıqdan uzaq fikirlər səsləndirir: "Onunla fikirlərim bəzən üst-üstə düşmür. Engels deyirdi ki, ictimai-siyasi hadisələrdə iştirak etməyən alim ictimai-siyasi hadisələr haqqında heç bir həqiqəti ifadə edə bilməz. Rəsul Quliyev Azərbaycanda olmadığına görə onun fikirləri düzgün olmaya bilər. Amma 2005-ci illə bağlı fikirləri ilə qismən razıyam. O vaxt yanlış addımlar atıldı. Nəticədə nailiyyətlər əldə edə bilmədik. Həmin vaxt müxalifət üçün parlamentdə 35-40 yer təklif olunmuşdu. Amma bizim yoldaşlar 75 yer istədilər. Ona görə də uğur əldə edə bilmədik. Sonra Əli Kərimlinin dəstəsində olan bəzi şəxslər yanlış hərəkət edərək, Gürcüstanda ermənilərdən pul aldılar. Bundan hökumət hərəkata qarşı vasitə kimi istifadə etdi. Beynəlxalq aləm də dəstək verməkdən imtina etdi. Rəsul Quliyevin fikirlərinin hamısını yanlış kimi qələmə vermək olmaz. Eyni zamanda, fikirlərin hamısını da doğru kimi qəbul etmək düzgün olmazdı. Bu baxımdan tənqidləri ilə həm qismən razıyam, həm də razı deyiləm. Əgər doğrudan da Azərbaycanda müxalifət yoxdursa, Rəsul müəllimin tənqid etdiyi qüvvələr kimlərdir? Adını çəkdiyi şəxslər heç kimdirsə, niyə o zaman tənqid edir? Deməli, bunlar bir gücdürlər. Bu qüvvələr iqtidar olmadığına görə müxalifətçilik edirlər. Rəsul Quliyevin "müxalifət yoxdur" sözləri ilə ölkəmizdə vəziyyətin ağır olması fikirləri arasında məntiqsizlik var. Sosial vəziyyət onu göstərdi ki, ölkədə vəziyyət ağır olanda xalq gizli və açıq şəkildə müxalifət olur. Biz 20-25 ildir müxalifətçiliyi davam etdirirık. Bəzən meydanlara 100 min, bəzən də 5 nəfər çıxarırıq. Amma mövcudluğumuzu saxlayırıq. Dünyanın heç bir yerində bizim qədər müxalifətçilik edən qüvvələr yoxdur. Amerikada müxalifət olmağa nə var ki? Elə bir demokratik mühit biz də olsaydı, 10 dəfə prezident olardım. Rəsul Quliyev bir tərəfdən Azərbaycandakı vəziyyəti düzgün analiz edir, digər tərəfdən isə yanlış nəticələr çıxarır. Belə vəziyyətdə müxalifətin olmasını qəhrəmanlıq hesab edirəm. Nədənsə, xaricə gedənlər orada bülbül kimi ötürlər. Həyatımızı riskə qoyub, 25 ildir mübarizə aparırıq. Belə insanlara abidə qoyulmalıdır. Təbii ki, səhvlərimiz də var. Rəsul Quliyev yaxşı bilirdi ki, seçki yolu ilə burada dəyişiklik etmək mümkün deyil. Dünya demokratik dəyişikliyə imkan vermirsə, bütün dünya ilə mübarizə aparmalıyıq? Ukrayna, Gürcüstanda inqilablar qalib gəldi, bəs biz də niyə yox? Sadəcə bu ölkələrə dəstək verildi, amma bizlərə yox. Müxalifət olaraq, daim demişik ki, Qərb bizə dəstək verib. Amma etiraf edək ki, Qərb, Amerika Ukrayna və Gürcüstana verdiyi dəstəyin cüzi hissəsini bizə verməyib. Ədalətli olmaq lazımdır. Rəsul Quliyev ədalətsizlik edir. Buyurub, öz liderlərini ortaya çıxarsınlar. Müxalifətçilik etmək hüququmuzdur. Bunu heç kəs məhdudlaşdıra bilməz. Rəsul Quliyev yanlışdır. Amma dediyi fikirlərin bir çoxu ilə razıyam".

Müsavat Partiyasının İcra Aparatının rəhbəri Gülağa Aslanlı sabiq spikeri bitmiş siyasətçi hesab edir: "Rəsul Quliyev bitmiş siyasətçidir. Bunun üçün də onun nə deməsinə hər hansı bir şərh vermək istəmirəm. O, bitmiş şəxsdir, bitmiş siyasətçidir. Onun fikirlərinin Müsavat Partiyası üçün heç bir əhəmiyyəti yoxdur".

Sabiq spikerin tənqid etdiyi Milli Şuradan mövqe bildirməyiblər.

❑ Cavanşir ABBASLI

# Villası yandırılan vəkilə hədə zəngləri gəlir



## İlham Əsədov: "Sifarişi verən vəzifəli şəxslərdir..."

**Evi yandırılan vəkil İlham Əsədovu müxtəlif nömrələrdən zəng edib hədələyirlər. Vəkil bildirir ki, fevralın 16-dan 17-nə keçən gecə Sabunçu rayonu, Nardaran qəsəbəsi, Bağlar massivindəki bağ evi yandırılandan sonra onu hədələməyə başlayırlar:**

"Xaricdən zəng edib məni hədələyirlər. Deyirlər ki, özünü yığışdır, şikayət eləmə, yoxsa övladlarınla haqq-hesab çəkəcəyik. Mən həmin şəxslərin müəyyən edilməsi üçün müraciət etmişəm. Bu hədələr, evimin yandırılması mənim vəkillik, bundan əvvəl isə müstəntiq kimi fəaliyyətimlə əlaqəlidir".

İ.Əsədov deyib ki, bağ evinin yandırılması ilə bağlı artıq araşdırmalar başlayıb: "Məni dəfələrlə hədələyiblər. Amma yolumdan döndərə bilməyiblər. Həmin adamlar villamın yandırılması ilə bağlı araşdırmalara mane olma ehtimalları böyükdür deyə, mən fövqəladə hallar naziri Kamaləddin Heydərova müraciət etdim. Xahiş etdim ki, məsələni şəxsi nəzarətinə götürüb araşdırılmasını təmin etsin. Bundan sonra FHN-də ekspert qrupu villamdan 5 saat ərzində yenidən araşdırma apardı, nümunələr götürdülər. Mənim bağ evimdə qaz ümumiyyətlə, yoxdur, elektrik cərəyanı isə darvazanın yanında, küçədən söndürülüb-yandırılır. Bağda olmadığımız müddətdə cərəyanı söndürürük. Belə bir halda villada yanğın nədən meydana gələ bilər? Qaz yox, cərəyan yox. Üstəlik bağ evinin həyətində kənar şəxslərin ayaq izləri var. Hasarın üstündə kənar şəxslərin əraziyə daxil olmasının qarşısını almaq üçün bərkidilən iti uclu şüşə parçaları da sındırılıb. Hasarın həmin yerində "stoyak" dirəyiblər ki, həyətdən asanca çıxıb gedə bilsinlər. Bunu bağ evimin ərazisinə girənlər edib".

Vəkil FHN-in obyektiv araşdırma aparılacağına ümid edir: "Villam mənim vəkillik fəaliyyətimlə əlaqədar yandırılıb. Sifarişçilərin kimliyi haqda məlumatlıyam. Sifarişi verən vəzifəli şəxslərdir".

Vəkil deyib ki, vaxtilə müstəntiq işləyib, 2005-ci ildən sonra isə vəkillik fəaliyyəti ilə məşğul olub. O, ekspertizanın rəyindən sonra mətbuata əlavə açıqlama verəcəyini bir daha diqqətə çatdırıb.

❑ E.MƏMMƏDƏLİYEV

YENİ MÜSAVAT
N 41 (6362) 22 fevral 2016

**Türkiyənin İzmir şəhərində Azərbaycan, Türkiyə və Gürcüstanın Qeyri-Hökumət Təşkilatlarının iştirakı ilə yaradılan İşğala, Terrora və Əsassız İddialara qarşı Beynəlxalq Forumun ikinci toplantısı keçirilib.**



# İzmirdən Türkiyə hökumətinə Qarabağ çağırışları

## “Türkiyə artıq ”Azərbaycanın savaşı bizim savaşımızdır" deməlidir"





**Akif Nağı:** “Rusiya-Türkiyə qarşıdurmasında qələbə Türkiyənin olacaq...”
**Göksel Gülbəy:** “Bizim dünyanın 100 bölgəsində eyni vaxtda səsimiz çıxacaq”

Musavat.com-un əməkdaşının məlumatına görə, tədbirdə çıxış edən Əsassız Erməni İddiaları ilə Mücadilə Dərnəyinin (ASİMDER) başqanı Göksel Gülbəy bildirib ki, Dağlıq Qarabağ münaqişəsinin həlli və erməni iddialarına qarşı mübarizə türklərin əsas vəzifələrindəndir və bu istiqamətdə çalışan insanların sayı artmalıdır.

Qurum rəhbəri deyib: “Qarşımızda çox güclü erməni lobbisi var. Ona görə də biz səsimizi dünyaya çatdırmaq, erməni yalanlarını ifşa etmək üçün bu forumu yaratdıq. Bu iş həm türk dünyasına, həm də Dağlıq Qarabağ probleminin həllinə yardım edəcək. Ancaq birlikdə hərəkət etsək, bu işə ciddi şəkildə yanaşsaq, uğur əldə edə bilərik. Eyni zamanda milli məsələlərdə aramızda olan çəkişmələri də bir kənara qoymalıyıq”.

Qarabağ Azadlıq Təşkilatının (QAT) sədri, Forumun koordinatoru Akif Nağı çıxışında Dağlıq Qarabağ münaqişəsinin həllində türk dünyasının həmrəylik nümayiş etdirməli olduğunu qeyd edib. O, forumun fəaliyyət mexanizminin müəyyənləşməsi istiqamətində də müəyyən təkliflər səsləndirib.

Beş saata yaxın davam edən Forumda Akif Kərimov, Radə Abbas, Emin Həsənli, Mehdi Mehdiyev, Əli Babayev, Sərraf Kərimov, Levent Rasimov, Gürsel Özdemir, İlham İsmayılov, Nəsimi Qarabağlı, Mətanət Əsgərqızı, Mehriban Abdullayeva, Tahirə Məmmədova, Firuzə Əsədullayeva, Sərraf Orucov, Naibə Behbudova, Mustafa Əliyev və digərləri çıxış edib yaradılan təşkilatla bağlı təkliflər veriblər. Bundan sonra təşkilata İran, Bolqarıstan və Rusiyadan yeni üzvlər seçilib. Eyni zamanda qurumun baş katibliyinin daimi ofisinin Bakıda fəaliyyət göstərməsi barədə yekdil qərar verilib.

Sonda Forum adından qətnamə qəbul edilib. Qətnamədə Azərbaycan-Türkiyə-Gürcüstan prezidentləri, XİN başçıları, müdafiə nazirləri səviyyəsində daimi əməkdaşlıq formatı, Türkiyə-İran-Azərbaycan xarici işlər nazirləri arasındakı daimi əməkdaşlıq formatı, bu dövlətlər arasındakı ikitərəfli əməkdaşlıq formatlarının təqdir edildiyi, bəyənildiyi və ictimai dəstək verdiyi vurğulanır. Eyni zamanda istənilən ölkəyə qarşı işğal, təcavüz, terror, etnik təmizləmə, əsassız iddialar, separatizmin dəstəklənməsi qətiyyətlə pislənilir. Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğal faktının tanındığı vurğulanmaqla bərabər, beynəlxalq aləmdən Ermənistana qarşı sanksiyaların tətbiq olunması, həmçinin Xocalı, Qaradağlı, Meşəli, Ağdaban soyqırımlarının bəşəriyyətə qarşı cinayət sayılır, beynəlxalq birlikdən bu cinayətləri törədənlərin cəzalandırılması tələb olunur. ATƏT-in Minsk Qrupunun həmsədrlərinin fəaliyyətini tənqid edən sənəddə Rusiyanın Gürcüstan, Ukrayna, Moldovanın ərazi bütövlüyü ilə bağlı ədalətsiz mövqe tutması vurğulanır. Türkiyədəki terror olayını pisləyən Forum iştirakçıları Türkiyə və Rusiya arasında gərginliyin artmasını da təhlükəli hal kimi dəyərləndirib.

***

Bundan sonra tədbir iştirakçıları Mustafa Kamal Atatürkün abidəsini ziyarət edərək çələng qoyublar, Türkiyə Cümhuriyyətinin yaradıcısını rəhmətlə anıblar.

Forum iştirakçıları günün ikinci yarısında İsmet İnönü Mədəniyyət Mərkəzində bir araya gəliblər. İctimaiyyət nümayəndələrinin də qatıldığı toplantıda çıxış edən İzmir İğdırlılar Dərnəyinin başqanı Gürsel Özdemir Forumun əsas məqsədlərindən danışıb: “Bu təşkilatın ana mərkəzi Bakıdır. Qapımız açıqdır, hər kəs bu təşkilata üzv ola bilər. Forumun yaradılması Qarabağla bağlıdır. Biz bir yola çıxdıq, bu yolun adı Qarabağdır. Çünki Qarabağ işğal altındadır və işğaldan azad olunub Azərbaycan dövlətinə verilməlidir! Bizim amalımız budur. İkincisi də biz Xocalı soyqırımını dünyaya çatdırmalıyıq. Qarabağ Azərbaycan dövlətinə qaytarılana qədər yolumuza davam edəcəyik”.



QAT sədri Akif Nağı çıxışında xatırladıb ki, dünya Türkiyədə törədilən terroru sükutla qarşılayıb, sərt mövqe bildirməyib: “Ona görə də biz böyük bir Türk toplumu olaraq özümüz özümüzdə güc tapmalı, düşmənlərimizin cavabını verməliyik”. A.Nağı tədbirdə Qarabağın işğalının gerçək səbəbkarını nişan verib: “Bizim QAT olaraq mövqeyimiz budur ki, Dağlıq Qarabağ məsələsi Rusiya tərəfindən yaradılıb, ondan Azərbaycana, hətta Türkiyəyə qarşı istifadə olunur. Bu gün Azərbaycan haqq savaşında Türkiyəyə arxalanır. Əminik ki, ən kritik məqamlarda Türkiyə həmişəki kimi Azərbaycanın arxasında dayanacaq. Biz bunu Türkiyədən gözləyirik. Amma bu gün Türkiyə hələ düşünür. Düzdür, dəstək var, ölkə rəhbərliyi dəfələrlə bildirib ki, Azərbaycanın dərdi, kədəri bizim dərdimizdir. Artıq bu kimi mövqelərdən qurtarmaq lazımdır. Bu sözlər çox deyilib. Türkiyə artıq ”Azərbaycanın savaşı bizim savaşımızdır" deməlidir. Bu söz ortada olarsa, yəni Rusiya bilsə ki, Türkiyə Azərbaycanın arxasındadır, o halda heç Azərbaycanın üzərinə gəlməyə cəsarət etməz".

QAT sədri onu da bildirib ki, Rusiya-Türkiyə qarşıdurmasında qələbə Türkiyənin olacaq: “Gün gələcək regionun taleyini Türkiyə həll edəcək. Necə ki, ötən əsrin ortalarında Türkiyə öz mövqeyini ortaya qoydu və Qars müqaviləsi ilə hər kəs hesablaşdı. Bu gün də Türkiyə ortaya mövqe qoymalıdır”.

Gürcüstan Azərbaycanlılarının Milli Konqresinin sədri Əli Babayev Gürcüstanda yarım milyon türkün yaşadığını dedi və dəstəyini ifadə etdi: “Türk millətinin birliyi üçün hər zaman öz sözümüzü deməyə hazırıq. Gürcüstanin da öz problemləri var, sovet vaxtı Rusiya Gürcüstanın ərazilərini - Abxaziya və Osetiyanı işğal edib. Gürcüstanın da 20 faiz torpağı işğal olunub, ölkənin 350 min qaçqını var. Ukraynada, Moldovada da ərazilər işğal olunub. Ona görə də gərək biz hamımız səsimizi qaldıraq. Ermənistandan 350 min Azərbaycan türkü öz torpağından qaçqın düşüb. Bütün bunların planı Kremldə hazırlanıb. Bu, həm də xristian dünyasının türklüyə qarşı oyunlarıdır”. Ə.Babayev Türkiyədəki terror hadisələrini, Suriya, İraq türkmənlərinə qarşı qətliamları ürək ağrısı ilə qarşıladıqlarını söyləyib: “Türkiyə Gürcüstandan ötrü ən yaxın ölkədir. Gürcüstanın inkişafında birinci yerdə dayanır. Bilin ki, biz harda bir türk var, onu müdafiə edəcəyik. Türk millətinin birliyi var olsun!”

ASEMDAR-ın başqanı Göksəl Gülbəy Forumun məram və məqsədləri barədə danışıb: “Bu gün Türk dünyasının hər tərəfində qətliamlar var. Biz bu qətliamlarla bağlı səsimizi dünyaya çatdıra bilmirik. Şərqi Türküstanda, Bosniyada, Qarabağda, Suriyada, İraqda, Bolqarıstanda törədilən qətliamları dünyaya yaya bilmədik. Düzdür, dərnəklər olaraq açıqlamalar yaydıq, kiminin bayrağını, kiminin rəsmini yandırdıq. Amma səsimizi 15-20, ya 100 nəfərlik aksiyalarla yaymağa çalışdıq. Səsimizi daha ucadan yaymalıyıq. Bizim hədəfimiz 7 türk cümhuriyyəti deyil. Hədəfimiz dünyanın bütün türklər yaşayan insanlarını bir araya gətirib onları bu təşkilata üzv etməkdir”. G.Gülbəy bildirib ki, bundan sonra bütün olaylara operativ reaksiyalar olacaq: “Gürcüstanda Əli bəy, Bolqarıstanda Levent bəy, Azərbaycnada Akif bəy, Tatarıstanda Sərraf bəy bu işə məsul oldular. Hansısa olay oldusa, həmin vaxtda əlaqə yaradacağıq, baş verənlərlə bağlı etirazımızı yayacağıq. Bizim dünyanın 100 bölgəsində eyni vaxtda səsimiz çıxacaq. Mətbuatın biri yazmasa da, digəri yazacaq”.

G.Gülbəy ardınca türk düşmənlərindən bəhs edib: “Avropanın harasına gedirsənsə, get, türk pasportu görən kimi qatil kimi qəbul edəcəklər. Bu gün erməniləri ”aziz" elan ediblər, yəni xristianların şəhidi. Baxın, ermənilər uşaqlarını necə yetişdirirlər? Erməni uşağına 5 lirə verir, deyir “bala, 2 lirəsini geri qaytar, onu diasporaya verəcəyəm”. Bunu ona görə edirlər ki, uşaq soruşsun “diasporaya niyə para veririk”. O da uşağa diasporanın türklərə qarşı savaşdığı barədə danışır. Beləcə, erməni uşaq ömrü boyu diasporaya para verməyə adət edir. Təəssüf ki, bizim uşaqlarımız nə Qarabağı tanıyır, nə digərlərini".

Azərbaycanlıların və digər Türkdilli Xalqların Əməkdaşlıq Mərkəzinin başqanı İlham İsmayılov toplantı işçilərini salamlayıb və könüllü şəkildə bu təşkilata dəstək verənlərə minnətdarlığını bildirib: “Mənim babalarım 1953-cü ildə Ermənistandan sürgün edilib. O zaman bir çox insanlar sürgün edilb. Biz ermənilərlə qonşuyuq və tarix boyu onlar tərəfindən şər-böhtana məruz qalmışıq, bundan sonra da belə davam edəcəklər. Yeganə çıxış yolu türkün birliyindədir”. İ.İsmayılov Türkiyə-Ermənistan sərhədlərinin açılması layihəsini xatırlatdı: “İllər öncə Sürix protokolu imzalanmışdı, əgər mətbuatın, xalqın etirazı olmasaydı, Ermənistanla sərhədlər açılacaqdı. Sonradan məlum oldu ki, əslində sərhədi açmaq istəyənlər Türkiyəni kürəyindən vurmaq istəyənlərmiş”. Təşkilat rəhbəri Rusiya təhdidlərindən də danışdı: “Əgər təyyarə olayı olmasaydı, siz də Rusiyanın kim olduğunu anlamayacaqdınız. Biz Qarabağ döyüşündə 20 mindən artıq şəhid verdik. Bu gün də şəhid veririk, ancaq Atatürk demişkən, biz ölməyəcəyik. İnşallah, bu inam bizi qələbəyə qədər aparacaq”.

Xocalı sakini Cavid Əliyev isə deyib ki, türkün düşməni təkcə erməni işğalçıları yox, onların arxasındakı Rusiyadır: “Bizim ata-babalarımız qədim türk torpaqları olan indiki Ermənistan ərazisindən didərgin düşüb Xocalıya gəlmişdi, 1992-ci ildə də Azərbaycanın içindən Azərbaycanın başqa yerinə köç etməli olduq. Bu toplantılarda bizim hamımızın sözü bir olmalıdır.

Ermənilər ona görə Dağlıq Qarabağın erməni icmasını yaradıb ki, beynəlxalq arenaya çıxsınlar, həmsədrlərlə görüşürlər. Biz də öz təbliğatımızı aparmalıyıq". C.Əliyev Xocalı dəhşətlərindən danışıb: “Ermənilər tarix boyu türkə qarşı hər cür vəhşilik ediblər. Mən o dəhşətlərin şahidiyəm. Xocalıdan çıxandan sonra da mən könüllü şəkildə döyüşmüşəm, bu gün də foruma həm döyüşçü, həm də şəhid ailəsi kimi qatılmışam. Hər birimiz eyni mövqedən çıxış etməliyik. Belə olarsa, qələbə bizimlə olacaq”.

❑ **Elşad PAŞASOY, İzmir**
**FOTO: “YM”**

YENİ MÜSAVAT
N 41 (6362) 22 fevral 2016



# Suriya üçün atəşkəs modeli

Zamin HACI
zaminhaci@gmail.com

**Velosipedi, Amerikanı, həmçinin, bizim deputatxananı təzədən kəşf eləməyə ehtiyac yoxdur. Bunlar əsrlərin sınağından çıxıb gəlmiş elmi-mədəni, coğrafi-siyasi, geoloji-qastroenteroloji bəşəri nailiyyətlər, uğurlardır. Hazır istifadə modelləridir. Götür, nə vaxt istəsən, nəyə istəsən yararlan.**

Örnək üçün, bu günlərdə Amerikada prezident seçkisi qabağı seçki qayırırlar. Haşiyə olaraq yazım ki, bu da bir əcaib sistemdir, qabaqca partiyalar öz aralarında namizədlərini seçirlər, sonra millət bu namizədlərdən prezident seçir. Halbuki, Məzahir müəllim olan yerdə belə ikiqat əziyyətə, səs-küyə ehtiyac olmazdı. Uzun sözün qısası, həmin seçki seçkisində namizədlərdən Donald Trump ABŞ-la Meksika arasında qanunsuz miqrantların qabağını almaq üçün hasar hörməyin vacibliyindən danışıb. Roma papası buna görə Trump-ı tənqid edib, deyib hasar hörən, insanlara sədd çəkən adam xristian dəyərlərinə uyğun deyil. Ancaq Trump da az aşın duzu deyil, deyib papa özü getsin Vatikanın hasarlarının dərdini çəksin.

Ləzzətli dialoqdur. Ancaq dünyada analoqu olmayan dialoq deyildir. Belə hasar müzakirələri çiçəklənən Azərbaycanımızda vaxtaşırı ortaya çıxırdı. Neft pulları yağan vaxtlarda ölkə tamam hasarlanmışdı. Nə dəniz üzü görə bilirdik, nə dağ. Qobustan qəsəbəsində isə hasarlar milləti rəsmən Güney-Quzey Azərbaycan vəziyyətinə salmışdı, şairlər "Qobustan həsrəti" adlı şeirlər qayırırdılar, camaat hasarın o biri üzündə qalan qohumlarına baxıb gözündən qanlı yaşlar axıdırdı. Şükür, axırda möhtərəm iqtidarın atalıq qayğısı sayəsində hasarda bir neçə yarıqlar açıldı, camaat o üz bu üzə gedib gələ bildi. Deməli, ABŞ və Meksika da istəsə bizim hasar modelindən yararlana bilər.

Yaxud, Suriyada 4-5 ildir qırğın gedir, problemin həlli yolu tapılmır. Son günlər dünyanın zırpı dövlətləri orda atəşkəs müqaviləsi qayırmağa çalışırlar, bu da uğursuzluqla nəticələnir. Səbəb sadədir: onlar Azərbaycan təcrübəsindən, dünyaya günəş kimi doğan xarici və daxili yapist siyasətimizdən yararlanmaq istəmirlər. İzah edim, hörmətli oxucular da qiymət versin.

Atəşkəs müqaviləsi imzalamaq üçün bir neçə komponentlərə ehtiyac vardır, əgər bunlar əldə olsa müqavilə şıppıltı ilə bağlanar, hətta uzunömürlü olar. Örnək üçün, bu il mayın 12-də bizim ermənilərlə imzaladığımız atəşkəs müqaviləsinin 22 ili tamam olacaqdır. Təsəvvür elə, 22 il! Bəlkə dünyada bu qədər uzun savaş olmayıbdır, orta əsrlərdəki-filandakı yüzillik savaşları çıxmaq şərtiylə. 22 ildir hər iki tərəf yalandan bir-birinə hərbə-zorba gələ-gələ kasıb uşaqlarından ildə 80-90 dənə vurmaqla atəşkəsə əməl edir. Məncə Suriyada bu cahanşümul təcrübədən yararlanmaq lazımdır.

İlk növbədə, Suriya üçün "Bişkək protokolu" qayırmaq lazımdır. Bunun kağız-kuğuzunu ruslara tapşırsan yaxşı düzüb qoşarlar. Bürokratik ənənələri olan dövlətdir - bir arayışı yüz ilə vermək kimi fitri istedad yiyəsidirlər. İmza atmaq üçün isə tərəflər mütləq hər biri özünə "Rəsul Quliyev" tapmalıdır. Yeri gəlmişkən, Rəsul müəllim hazırda canlı şəkildə elə ABŞ-da yaşamaq üzrədir, məncə yankilər onu Suriyada atəşkəs protokoluna imza atmağa müvəkkil edə bilərlər.

İkincisi, uduzan, ancaq bunu həzm etmək istəməyən qüvvələr üçün babat bir "Murov qırğını" təşkil olunmalıdır ki, atəşkəsə qaça-qaça imza atsınlar. Bunun üçün məncə Suriyada Türkmən dağı əraziləri yarayır.

Üçüncüsü, bir nəfər "Ancey Kasprşik" adında polyak tapıb əraziyə ezam eləmək lazımdır. Ki, guya atəşkəsə əməl edilməsini monitorinq edir. O cümlədən, arada xarici müşahidəçilər, atəşkəsin həmsədrləri-zadı bölgəyə səfər edəndə birinin "çiş" elədiyi yerdə fotosunu çəkib SazTV-də (bu, Suriyanın AzTV-sidir) dünyaya göstərməlisən.

Ümumiyyətlə, atəşkəsin vacib elementlərindən biri telekanalizasiyadır. Ancaq gərək burda da balans qorunsun. Bir tərəf "İnşallah, gələn Novruzda Hələbə bayraq taxıb İŞİD-in ağzını cıracağıq" deyəndə o biri tərəf yatmasın, o da öz efirində Dəməşqin qədim islam dövlətinin paytaxtı olmasını, Dəclədən Fərata, lavaşdan xurmaya, nə bilim, Allahu-Əkbərdən cihada qədər hər bir şeyin dövri-qədimdən onlara məxsus olmasını dayanmadan yaysın.

Vəssalam, ondan sonra atəşkəs hazırdır. Otur, bas, ye.

# Rusiya prezidenti o vaxt demişdi ki...

**Türkiyədəki son qanlı terror olayları bir çox mübhəmləri və ilginc mətləbləri ortaya çıxardı və çıxarmaqdadır. Ən önəmlisi, bu olaylar bölgədə Ankaranın istər gerçək, istərsə də virtual (yalançı) müttəfiqləri və düşmənlərinin səfinə güclü bir işıq saldı. Dost və rəqiblərdən kimsə yeni test-sınaqdan uğurla çıxdı, kim isə - yox. Kimi də "iki stulda oturmağa" çalışır - Ankaranın strateji müttəfiqi sayılan ABŞ kimi.**




## Putinin unudulan hədəsi və Bakının qəlizləşən seçimi - tələb-şərtlər ağırlaşır

Ankaradakı terror olayları Vaşinqton üzərinə də şübhə toxumları səpib; Türkiyə ABŞ-ı nədən Rusiya ilə gizli işbirliyində suçlayır, Amerika ilə müttəfiqlik təhlükədəmi? Dəyişən dönəmin Azərbaycana da birbaşa dəxli var, çünki...

Məsələ də ondadır ki, bir yandan Ağ Ev terroru şiddətlə qınayaraq, Ankaranın yanında olduğunu bəyan elədisə, "Türkiyənin terror təhlükəsi ilə üz-üzə qalan ölkə kimi öz xalqını hücumlardan qorumaq üçün bütün mümkün imkanlardan istifadə etmək hüququ var" söylədisə, digər yandan da Türkiyədən Suriya ərazisindəki terrorçu kürd qruplaşmalarının düşərgələrinə zərbələri dayandırmaq xahişində bulundu və bulunmaqdadır.

Təbii ki, belə yanaşma Türkiyə üçün qaneedici deyil. Ankara haqlı şəkildə PKK-nın Suriyadakı qolunun - son terror aktının icraçısının üzv olduğu PYD/YPG-nin də terror təşkilatı kimi tanınmasını tələb edir. Görəsən, əlavə hansı dəlil-sübut lazımdır ki, regionda Türkiyəni özünün vazkeçilməz müttəfiqi və dostu sayan bir dövlət bu qərarı versin?

Amerikanın sərgilədiyi belə ikibaşlı mövqe qardaş ölkəni tam haqqına məmnun eləmir. O üzdən də prezident Rəcəb Tayyib Ərdoğan PKK məsələsində ABŞ-ın konkret mövqe ortaya qoymasını, əks təqdirdə, Türkiyə kimi bir müttəfiqi itirəcəyinin anonsunu verməli oldu. Paralel surətdə ABŞ təyyarələrinin İncirlik hərbi bazasından çıxarılacağı barədə Türkiyədən xəbərdarlıq mesajı gəldi, Ərdoğanın baş müşaviri Şəref Malkoç bunu bilavasitə PYD/YPG-ni terror təşkilatı kimi tanımaması ilə əlaqələndirdi.

Ankaranın onun dilindən çıxan ismarışı isə belə idi: "İslam coğrafiyasını və Osmanlını parçalamağı qarşısına məqsəd qoyan Birinci Dünya Müharibəsi əslində hələ də davam edir. Bu işin içində Rusiya da, İran da var, təəssüf ki, dost bildiyimiz dövlətlər də. Bizə dost olması lazım olanlar düşmənçilik edirsə, onun tədbirini də görürük. Təkcə Amerikaya qarşı deyil, Türkiyə əleyhinə fəaliyyət göstərən istənilən dövlət haqqında tədbirimizi görürük. Təkcə İncirlik deyil, Türkiyənin təzyiq rıçaqları çoxdur. ABŞ Suriyada Türkiyə əleyhinə Rusiya ilə birgə hərəkət edir. Bunun izahı varmı?".

***

Beləcə, ABŞ bölgədə Rusiya ilə birgə Türkiyə əleyhinə ssenarilərdə iştirakda ittiham olunur - Türkiyənin özü tərəfindən. Suriya böhranı başlayandan rəsmi Ankara Ağ Evə qarşı hələ bu cür ağır ittiham irəli sürməmişdi. Bu ittihamın ardınca ABŞ prezidenti Barak Obama ilə Rəcəb Tayyib Ərdoğan arasında olan 1 saat 20 dəqiqəlik telefon danışığı da deyəsən vəziyyətə aydınlıq gətirməyib. Hər halda, görüşlə bağlı gələn informasiyalara görə, Obama PYD/YPG-nin terrorçu kimi tanınacağı vədini verməyib.

Doğrudur, həftəsonu Rusiyanın Türkiyə əleyhinə hazırladığı qətnamə layihəsinə BMT Təhlükəsizlik Şurasının 5 daimi üzvündən biri kimi ABŞ da veto qoyub və Türkiyə ilə müttəfiqliyə sadiqlik göstərməyə çalışıb. Amma əsas sual açıq qalır: Vaşinqton PYD/YPG-ni terror hörgütü olaraq tanıyacaqmı?

İstisna deyil ki, bu sual, eləcə də ABŞ-ın Rusiya ilə Türkiyə əleyhinə işləməsinə dair ittihamın cavabsız qalması hələ bir müddət də Ankara-Vaşinqton müttəfiqliyini təhdid altında saxlayacaq, iki ölkə münasibətlərinə sərinlik gətirəcək, şübhə toxumları səpəcək. Zira, "Örtülü bazar dostluğu pozar".

***

Ankaradakı son terror olayında Rusiya "izi" isə artıq təsdiqlənmiş sayılır. Analitiklər bunu indi həm də Ərdoğanın Bakı səfərinin təxirə salınması fonunda, arqumentli şəkildə izah edirlər. Misal üçün, politoloq Qabil Hüseynli müsavat.com-a deyib: "Ərdoğanın Bakıya səfərinin kökündə nələrin durduğunu Rusiyadan yaxşı bilən olmazdı. Moskvaya yaxşı bəlli idi ki, o, Bakını Müsəlman İttifaqına qoşmağa cəhd edəcək. Üstəlik, Davudoğlu da Brüsselə gedəcəkdi. Miqrasiya məsələləri müzakirə olunacaqdı. Miqrant məsələlərinin əsl səbəbkarının Rusiya olduğu isə birmənalı şəkildə Qərb dövlətləri tərəfindən vurğulanır. Brüsseldə Rusiyanın ciddi şəkildə tənqid ediləcəyi, ondan Suriyada hava hücumlarının dayandırılmasının tələb ediləcəyi gözlənilirdi. Burada da ən çox arqumentlərlə çıxış edəcək, Rusiyanı faktlarla ifşa edəcək şəxs Türkiyənin baş naziri idi. Ərdoğanın Bakı, Davudoğlunun Brüssel səfərinə yalnız Rusiya mane ola bilərdi. Yüksək peşəkarlıqla hazırlanan bu əməliyyat Rusiya, istərsə də ABŞ kimi iri dövlətlər tərəfindən təşkil oluna bilərdi".

Yəni Rusiya ilə bahəm, ABŞ üzərinə də yenə kölgə salınır. Maraqlıdır, deyilmi?

Bu yerdə "Su-24" insidentindən sonra Rusiya prezidenti Vladimir Putinin ötən ilin dekabrında Federasiya Şurasına etdiyi illik müraciəti zamanı Türkiyənin ünvanına söylədiyi hədələr yada düşür. Putin belə bir ifadə də işlətmişdi ki, "biz Türkiyəni gözləmədiyi yerlərindən, qəfil vuracağıq, onlar hələ çox peşman olacaqlar".

Sən demə, PKK-yönlü HDP lideri Səlahəddin Dəmirdaşın Moskva səfəri qardaş ölkəyə qarşı məkrli fəaliyyətin yalnız başlanğıcı imiş...

***

Moskvanın terrorizmin sponsoru olmasına dəlalət edən daha bir diqqətçəkici detal: Rusiyanın Türkiyə əleyhinə hazırladığı qətnamə layihəsinə BMT Təhlükəsizlik Şurasının 5 daimi üzvündən olan ABŞ və Böyük Britaniya ilə yanaşı, Ankaranın ənənəvi rəqibi, Rusiyanın isə ənənəvi gizli müttəfiqi və Ermənistanın açıq dostu Fransa da veto qoyub.

Bu, Kremlin son terror aktlarında, ümumən bölgədəki destruktiv rolunun təsdiqinə əlavə dəlil sayıla bilər. Hər halda, Fransa Türkiyə kimi terrordan ən çox əziyyət çəkən 2-3 ölkədən biridir. Ümumiyyətlə, axır vaxtlar rəsmi Paris Kremlin Suriyadakı əməliyyatlarını qınayan mövqe sərgiləyir, bombardmanları dayandırmağa çağırır ki, bu da əvvəlki mövqe ilə ziddiyyət təşkil edir.

Yeri gəlmişkən, Fransa prezidenti Fransua Olland Suriyadakı situasiya üzündən Türkiyə və Rusiya arasında müharibəni mümkün saydığını söyləyib. "Bunu önləməkdən ötrü hər şeyi eləmək lazımdır" - bildirib Fransa lideri...

Situasiya isə həqiqətən də partlayış həddindədir. Deyəsən Rusiya da onun fərqindədir və nəhayət, təlaş keçirməyə başlayıb. Məlumatlara görə, Moskva həmçinin Türkiyə və İsrail arasındakı qəfil razılaşmadan narahat olub. İsrail radiosunun məlumatına görə, belə bir narahatlığı Rusiyanın xarici işlər naziri Sergey Lavrov İsrail diplomatı Dore Qold ilə görüşündə deyib. Qeyd edək ki, son günlər Türkiyə və İsrail arasında bütün məsələlərdə razılıq əldə edilməsi haqqında məlumatlar yayılıb.

***

Sonda bir daha vurğulamaq zərurəti var ki, Ərdoğanın Bakı səfəri və bu səfər çərçivəsində onun Bakıya edəcəyi təkliflər Türkiyəyə son terror hücumunda mühüm motiv rolu oynayıb. İndi aydın olur ki, Putinin o vaxtkı hədələri həm də həmin təkliflərin ediləcəyi Azərbaycana ünvanlı imiş. Özü də birbaşa. Deməli, rəsmi Bakı üçün seçim problemi indi daha da mürəkkəbləşmiş sayıla bilər.

**Analitik xidmət**



# Türkiyəyə qarşı terror hücumları Ərdoğana görədir?

**Qabil Hüseynli:** “AKP iqtidarı getsə, terror aktları nəinki dayanmayacaq, hətta Türkiyənin bölünməsi təhlükəsi yarana bilər...”

**Türkiyədə ard-arda terror aktları həyata keçirən PKK və ona bağlı olan terrorçu qruplar bu qanlı teraktları prezident Rəcəb Tayyib Ərdoğanın siyasətinə etiraz olaraq həyata keçirdiklərini bəyan ediblər. Onların bəyanatlarında belə bir ştrixlər müşahidə olunur ki, hədəflərində Ərdoğan iqtidarıdır.**

Bəs, əslində necədir? Türkiyədəki terror aktları Ərdoğana görədirmi? Ərdoğan iqtidarda olmasa, terrorçular cinayətlərini dayandıracaqlarmı? Terrorçu qruplar “Terror aktını Ərdoğanın siyasətinə etiraz olaraq həyata keçiririk” bəyanatını tez-tez yaymaqla əslində hansı məqsədi güdürlər?

**Politoloq Qabil Hüseynli** bildirdi ki, terror aktlarının guya Ərdoğan iqtidarına qarşı olduğu barədə iddialar əsassız, tənqidə dözümü, məntiqi əsası olmayan iddiadır. Bu hadisələrinin Türkiyə dövlətinə və xalqına qarşı olduğu bəllidir: “Terrorçular çox bəsit təbliğat aparırlar. Onların bu təbliğat xarakterli bəyanatlarına inanan yoxdur. Hər kəsə aydındır ki, terror aktları Türkiyə dövlətini sarsıtmaq üçündür. Ola bilsin ki, indiki Türkiyə iqtidarı nədəsə səhvə yol verib və verir. Amma şübhəsiz ki, bu gün Türkiyədə indiki iqtidar yox, koalisiyon hökumət olsaydı, Türkiyəyə qarşı qurulan bu sui-qəsdlərin, təzyiqlərin qarşısını zərrə qədər də ala bilməzdi. İndiki iqtidar, xüsusilə də prezident Ərdoğan çox ciddi şəkildə mübarizə aparmaq qabiliyyətinə, imkanlarına malikdir. Ölkə əhalisini lazımi ovqatda saxlamağı da bacarır. Bütün bölücü, separatçı, terrorçu qurumlara qarşı ordunun da vasitəsilə çox uğurlu mübarizə aparır. Terror aktlarının Ərdoğanın siyasətinə etiraz olaraq həyata keçirildiyi barədə bəyanatlar Türkiyə xalqını iqtidara qarşı qaldırmaq, ölkənin daxilində əlavə siyasi gərginliklər, hakimiyyətsizlik yaratmaq məqsədi güdür. Qəsdən vətəndaşlarda rəy yaratmaq istəyirlər ki, ölkənin terrorla üz-üzə qalması Ərdoğanın iqtidarına görədir. Bu rəyi yaradıb xalqı iqtidara qarşı qaldırmaq istəyirlər. Mən zaman-zaman Ərdoğan iqtidarını tənqid etmişəm, onun bəzi sahələrdə yol verdiyi qüsurları qeyd etmişəm. Amma indiki ekstremal vəziyyətdə Ərdoğan iqtidarı kifayət qədər cəsarətli görünür, səfərbər olunmuş və qətiyyətli iradə ortaya qoyub. İçərilərində Rusiya xofu olan Avropadan fərqli olaraq Türkiyə Rusiyanı xeyli dərəcədə sındıra bilib. BMT-də Rusiyanın Türkiyəyə qarşı sənəd qəbul etdirə bilməməsi də sadə məsələ deyil. Terror aktlarının Ərdoğan iqtidarının siyasətinə qarşı olduğu təbliğatı həm də bu məqamdan qaynaqlanır. Ərdoğan iqtidarı bir sıra güclərin qarşısında Türkiyə ilə bağlı məkrli planlarını həyata keçirməyə ciddi mane olur”.


Rəcəb Tayyib Ərdoğan

Politoloq vurğuladı ki, Ərdoğan iqtidarı iş başından gedərsə, terror aktları nəinki dayanmayacaq, hətta Türkiyənin bölünməsi təhlükəsi yaranar: “İndiki məqamda bu iqtidar gedərsə, terrorçular daha da geniş əl-qol açarlar, Türkiyə çox təhlükəli xaosa sürüklənər. Hətta qardaş ölkə parçalanmaq təhlükəsi qarşısında qala bilər. Heç kim elə zənn etməsin ki, bu gün Ərdoğan iqtidarı getsə, Türkiyədə terror aktları dayanacaq, Türkiyəyə qarşı hücumlar sona çatacaq. Əksinə, daha dəhşətli hadisələr bundan sonra başlaya bilər. Bu gün Türkiyə iqtidarının apardığı siyasət düzgündür. Ən vacib məsələlərdən biri odur ki, Türkiyədə heç bir hakimiyyət boşluğu yoxdur. Hakimiyyət strukturları hər gün bir az da daha yaxşı işləməyə başlayır. Əhalinin əhval-ruhiyyəsi də lazımi səviyyədədir”.

❑ **Etibar SEYİDAĞA**

# Azərbaycanı terrordan qoruyan əsas qüvvə

**Ərəstun Oruclu:** “Çox təəssüf ki, terror artıq dünya siyasətində vasitəyə çevrilib...”

**Dünyanın bir sıra dövlətlərində, xüsusilə Azərbaycanın yerləşdiyi coğrafiyaya yaxın bölgələrdə terror hadisələri tüğyan edir. Terrorun meydan suladığı bir zamanda sevindiricisir ki, belə hadisələr Azərbaycanda müşahidə edilmir.**


Ərəstun Oruclu

Bəzi ekspertlərin fikrincə, Azərbaycanın da daxilində son illərdə öz məkrli niyyətlərini həyata keçirmək istəyində olan radikal qruplar, şəxslər olub, lakin təhlükəsizlik orqanları əməliyyatlar keçirərək bu planların qarşısını alıblar. Ölkəmizi terrora hədəf olmaqdan dövlət rəhbərliyi, xüsusi xidmət orqanları və Allah qoruyur.

**“Şərq-Qərb” Araşdırmaları Mərkəzinin rəhbəri, keçmiş MTN zabiti Ərəstun Oruclu** isə bu mövzuda danışarkən bildirdi ki, ölkənin tərəf tutmaması burada rol oynayan amillərdən biridir: “Mən Azərbaycanda müxtəlif vaxtlarda antiterror əməliyyatları keçirildiyi və potensial terrorçuların zərərsizləşdirildiyi barədə verilmiş informasiyalara spektik yanaşıram. Xüsusilə Eldar Mahmudovun cinayətkar dəstəsi ifşa olunandan sonra bir daha sübuta yetdi ki, mənim yanaşmam düzgün olub. Eldar Mahmudovun dəstəsinin antiterror əməliyyatları adı altında keçirdiyi əməliyyatların çoxu heç də həqiqətən terrorla mübarizə olmayıb. Daha çox görüntü olub. Azərbaycanın şükürlər olsun ki, terrorun hədəfinə gəlməməsi əsasən onunla bağlıdır ki, indi həyata keçirilən terror aktlarının siyasi səbəbləri və arxasında dövlətlər dayanır. Terror artıq bir klassik anlamda terror olmaq funksiyasını itirib. Əvvəllər terror aktlarını sırf terrorçu təşkilatlar özləri istəyir, özləri hazırlayır, özləri reallaşdırırdılar və dərhal da elan edirdilər ki, bu aktı biz həyata keçirmişik. İndi isə artıq terrorçuların konkret sifarişçiləri var və əksər hallarda sifarişçilər dövlətlərdir. Dövlətlər terrorçuları münaqişə vəziyyətində olan ölkələrə təsir etmək məqsədilə istifadə edilər. Ona görə də indi bu və ya digər ölkənin terrora məruz qalması onun siyasətindən, iri dövlətlərlə münasibətlərinin necə olmasından xeyli dərəcədə asılıdır. Azərbaycanın xarici siyasətində bu gün tərəfsizlik müşahidə olunur. Faktiki olaraq Azərbaycan heç bir şeyə, heç kimin daxili işinə, heç bir münaqişə vəziyyətində olan tərəflərin mübarizəsinə qarışmır. İlham Əliyev də çıxışlarında bunu bəyan edib”.

Bununla belə, ekspert vurğuladı ki, Azərbaycan dövləti və cəmiyyəti də ayıq-sayıq olmalıdır. Çünki heç bir dövlət terrordan tam sığortalanmayıb. Azərbaycanı gələcəkdə nəyəsə qarışmağa vadar edəndə bizim həmin nəsnəyə qarışmağımızı istəməyənlərin hədəfinə gələ bilərik: “Diqqət etdinizsə, dövlət başçısı İlham Əliyev Gəncədə səfərdə olan zaman dedi ki, bizi bizə aidiyyəti olmayan məsələlərə cəlb eləmək istəyirlər. Bu elə-belə deyilmiş fikir deyil. Cəlb eləmək istəyirlərsə, heç kəs tam təminat verə bilməz ki, biz cəlb olunmaq istəməyəndə haqqımızda hansı sərt vasitələrə əl atmayacaqlar. Çox təəssüf ki, dünya siyasətində terror bir vasitəyə çevrilib. Bu isə dünyada sabitliyi, əmin-amanlığı pozur”.

❑ **E.SEYİDAĞA**

# Jirinovski yenə sərsəmlədi

“Türkiyənin hərbi komendantı olacağam...”

**Rusiya Liberal-Demokrat Partiyasının (RLDP) lideri Vladimir Jirinovski "Türkiyənin hərbi komendantı" postunu tutmağa hazırdır. Virtualaz.org bildirir ki, bunu o, “Rus xəbərlər xidməti” agentliyinə verdiyi müsahibəsində deyib.**


Vladimir Jirinovski

“Mən Türkiyədə azad olunmuş ərazilərin hərbi komendantı ola bilərəm, necə ki 1945 -ci ildə marşal Jukov Berlində olmuşdu. İstanbulu Konstantinopol adlandırmaq, pravoslav məbədlərini bərpa etmək və rus dilini ikinci rəsmi dil elan etmək üçün”, - deyə V.Jirinovski xəstə arzularını açıqlayıb.

RLDP lideri əlavə edib ki, Türkiyəni bir dövlət kimi ləğv etmək, onun ərazilərini isə kürdlərə, ermənilərə, yunanlara və bolqarlara vermək lazımdır. O bir məqamı da xüsusi vurğulayıb ki, “bu məsələnin həllində hərbi köməyi yalnız Rusiya göstərə bilər”.

Jirinovski iddia edib ki, “kürdlər Ankaranı cəmi iki həftəyə ələ keçirməyə hazırdırlar, ermənilərə gəlincə, onlar da yüz il əvvəlki "soyqırımı"na görə qisas almaq istəyirlər".

Tez-tez öz sərsəm iddiaları ilə gündəmə gələn RLDP sədri sonda qeyd edib ki, onun fikrincə, bu, irimiqyaslı müharibəyə gətirib çıxarmayacaq: “Çünki Avropa İttifaqı Türkiyəni müdafiə etmək fikrində deyil, NATO isə bu məsələyə qarışmayacaq, ən azı o səbəbdən ki, ona belə Türkiyə lazım deyil”.

YENİ MÜSAVAT
N 41 (6362) 22 fevral 2016



# "MTN işi"ndə həbs olunanların tam siyahısı "Yeni Müsavat"da

## Bir çox vəzifəli şəxs isə qurumun ləğvindən əvvəl tutduqları vəzifələrdən uzaqlaşdırılıblar

**Ötən il oktyabrın 17-də gecəyarısı həyata keçirilən xüsusi əməliyyat Milli Təhlükəsizlik Nazirliyinin (MTN) qurum olaraq ləğvi ilə sonuclandı. Qurumda başlanan qəfil yoxlamalar nəticəsində Eldar Mahmudov nazir kreslosunu itirdi, mərkəz, idarə və şöbələrinin əksər əməkdaşları istintaqa cəlb olunublar. Əməliyyatdan 2 ay sonra prezident İlham Əliyev Dövlət Təhlükəsizliyi Xidmətinin və Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətinin yaradılması haqda fərman imzalamaqla, faktiki olaraq, MTN-in qurum olaraq ləğvinə imza atmış oldu. Həmin vaxt artıq MTN-in 5-dən çox generalı da daxil olmaqla, xeyli əməkdaşı həbsə alınmışdı.**

Hazırda MTN-də baş verən qanunsuzluqlarla bağlı Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində cinayət işi başlanıb. Baş Prokurorluğun rəsmi məlumatına görə, iş üzrə istintaqa 22 şəxs cəlb olunub. 1 nəfər axtarışda, 1 şəxs isə ev dustaqlığındadır. Maraqlıdır ki, rəsmi məlumatlarda iş üzrə istintaqa cəlb olunmuş şəxslərin kimliyi haqda məlumat verilmir. Odur ki, mətbuatda "MTN işi" adı ilə keçən işdə tutulanların kimliyi haqda ən müxtəlif mənbələrdən alınmış məlumatlar yayılır. Həmin məlumatların rəsmi mənbələrdən yoxlanılması isə ən müxtəlif səbəblərdən mümkün olmur. "MTN işi" üzrə istintaqa cəlb olunmuş şəxslərin tam siyahısı isə bu günə qədər mətbuatda dərc olunmayıb. "Yeni Müsavat" əməkdaşı istintaqa yaxın mənbədən istintaqa cəlb edilənlərin tam siyahısını dəqiqləşdirə bilib.

Hazırda 2 şəxs həbsdə deyil. Bunlar iş üzrə istintaqa cəlb olunan MTN Əməliyyat-texniki idarəsinin sabiq rəisi, general-mayor Natəvan Mürvətova, "Akula Akif" ləqəbli Akif Mustafayevdir.

Xəbər verdiyimiz kimi, Natəvan Mürvətova ev dustağıdır. Mətbuatda ara-sıra iş üzrə ev dustaqlığında olan şəxsin sabiq nazir Eldar Mahmudovun olduğu qeyd edilsə də, onun barəsində rəsmi olaraq hər hansı bir qərar yoxdur. İş üzrə axtarışda olan şəxs isə MTN-in "işverən"i kimi tanınan "Akula Akif" ləqəbli Akif Mustafayevdir.

İş üzrə ilk həbs olunan Antiterror Mərkəzinin rəis müavini İlqar Əliyev isə rəsmi məlumatlara görə, Bakı İstintaq Təcridxanasında intihar edib.

İş üzrə həbsdə olan MTN-çilərin siyahını təqdim edirik:

1. MTN Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq rəisi, general-mayor Akif Çovdarov;
2. MTN-in Monitorinq Mərkəzinin rəisi, general-mayor Teymur Quliyev;
3. MTN-in Antiterror Mərkəzinin sabiq rəisi, general-mayor Elçin Quliyev;
4. MTN-in Transmilli İqtisadi Cinayətkarlıqla Mübarizə Baş İdarəsinin rəisi, general-mayor Sübahir Qurbanov;
Monitorinq Mərkəzinin əməkdaşları
5. Fərhad Atayev,
6. Anar Şirəliyev,
7. Eşqin Əliyev,
8. Elşad Əzizov;
9. Transmilli İqtisadi Cinayətkarlıqla Mübarizə Baş İdarəsinin şöbə rəisi, polkovnik Fizuli Əliyev;
10. İstintaq Baş İdarəsinin rəis müavini, şöbə rəisi, polkovnik-leytenant Vüsal Ələkbərov;
11. MTN-in Baş Əks Kəşfiyyat İdarəsinin şöbə rəisi polkovnik Mirəziz Əsgərov;
12. MTN polkovniki Mehman Abdullayev;
13. MTN Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin şöbə rəisi Akif Əliyev;
14. MTN Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin baş əməliyyat müvəkkili Anar Hüseynov;
15. MTN Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsindəki idarələrdən birinin rəisi Səlim Məmmədov;
16. Həmin idarənin işçisi Orxan Osmanov;
17. Transmilli İqtisadi Cinayətkarlıqla Mübarizə Baş İdarəsinin şöbə rəisi Natiq Alıyev;
18. Əməliyyat-texniki idarənin şöbə rəisi Zaur Məmmədov;
19. MTN-in şöbələrindən birinin sabiq rəis müavini Azər Mehdiyev.

Baş Prokurorluğun "MTN işi" ilə bağlı yaydığı son məlumata görə, iş üzrə ümumilikdə 22 şəxs təqsirləndirilən şəxs qismində cəlb edilib. Onlardan 20 şəxs həbsə alınıb. 1 nəfər barəsində başqa yerə getməmək haqda iltizam qətimkan tədbiri seçilib. İstintaqdan yayınan 1 şəxs barəsində həbs qətimkan tədbiri seçilməklə axtarış elan edilib.

İş üzrə 130 epizod araşdırılır. MTN-çilərin cinayət əməlləri nəticəsində hüquqları pozulmuş 65 nəfər zərərçəkmiş şəxs qismində tanınıb. MTN-dən qovulanların isə sayı-hesabı yoxdur. Onlardan bir neçəsinin kimliyini dəqiqləşdirə bilmişik. Qovulanlar sırasında Eldar Mahmudovun sayəsində Azərbaycanın ən gənc generallarından biri olan 36 yaşlı general-mayor Vüqar Allahquliyev də var. Bu şəxs MTN-in hərbi hissə komandiri vəzifəsindən uzaqlaşdırılıb. General təhlükəsizlik sistemində işə yararsız hesab edilib. V.Allahquliyev 2015-ci il martın 27-də general-mayor rütbəsi ilə təltif edilib. 36 yaşlı general Eldar Mahmudovun qohumudur. V.Allahquliyevin atası Zülfüqar Allahquliyev sabiq MTN rəhbəri Eldar Mahmudovun həyat yoldaşının dayısıdır. Bundan əlavə, Z.Allahquliyev Azərbaycanın ən varlı iş adamlarından sayılır. Məlumata görə, onun bir neçə ticarət obyektləri və kərpic zavodları var. Eldar Mahmudovun nazirliyi dövründə Baş İdarə rəisi olan general-mayor Tarverdi Məmmədov, Baş İdarə rəisi general-mayor Pərviz Səfərov, MTN-in Hava Limanı İdarəsinin rəisi, polkovnik Pərviz Vəliyev, nazirliyin Kadrlar İdarəsinin rəis müavini polkovnik Tehran Babatov, MTN-in Xətai rayon şöbəsinin rəisi Rafiq Hümbətov, milli təhlükəsizlik nazirinin müavini, general-mayor Elçin Əliyev, MTN-in Antiterror Mərkəzinin idarə rəisinin müavini, polkovnik Nail Tağızadə, Kadrlar Baş İdarəsinin əməkdaşı Aysel Əlizadə və adlarını dəqiqləşdirə bilmədiyimiz bir çox vəzifəli şəxslər qurumun ləğvindən əvvəl tutduqları vəzifələrdən uzaqlaşdırılıblar. MTN-in əvəzində yaradılan yeni quruma isə bu şəxslərin geri qaytarılmadığı haqda məlumatlar var.

"MTN işi" üzrə həbs olunanlar Bakı istintaq Təcridxanasında saxlanılırlar. Onlara ilkin olaraq Cinayət Məcəlləsinin 3 maddəsi - 308.2, 309.1 və 302.2-ci maddələri ilə ittiham irəli sürülüb.

❑ E.MƏMMƏDƏLİYEV

# Akif Çovdarovla bağlı yeni qalmaqal ortaya çıxdı

## Həbsdəki MTN generalının işgəncəsinə məruz qaldığını deyən "bacıoğlu" fırıldaqda suçlanır; şikayətçi Xaləddin Yusibov: "O, taxta alveri adı ilə bir neçə nəfəri aldadıb..."

**"Qədim Ədilovun saytlarda Akif Çovdarovun ona işgəncə verməsi haqda sözlərini oxuyanda çox təəccübləndim. Qədim mənim kimi çox adama "Akif Çovdarov dayımdır" deyib. Onun adı ilə MTN-ə çox adamı apartdırıb. Onun həmin müsahibələri özünü zərərçəkən kimi təqdim etməkdən başqa iş deyil".**

Bu sözləri "Yeni Müsavat"a müraciət edən Xaləddin Yusibov deyib. Onun sözlərinə görə, Qədim Ədilov təkcə ondan taxta biznesinə görə 126 min 700 dollar və 50 min manat alıb. Əvəzində ölkəyə vaqonla taxta gətiriləcəyini, hər vaqona görə ona 2 min manat gəlir verəcəyini deyib: "Ola bilər ki, Akif Çovdarov onu dediyi kimi döyüb. Akif Çovdarovla məsələsinin həllini özü bilər. Amma Qədim Ədilov Keşlə Yük Stansiyasında mənim kimi şəxslərdən şikayətçi ordusu yaradıb".



Q.Ədilov verdiyi müsahibədə Akif Çovdarovun kabinetinə aparılaraq orada döyüldüyünü, təzyiqə məruz qaldığını deyir. X.Yusibov deyir ki, belə bir hal olubsa, araşdırılmalıdır, amma Q.Ədilovun ona və onun kimi çoxsaylı şəxslərə qarşı etdiyi əməllər də kənara qoyulmamalıdır: "2014-cü ilin aprelində elə Keşlə Yük Stansiyasında tanış olmuşuq. Bizi Rövşən Məhərrəmov tanış etdi. Həmin vaxt mən özümün biznesimi qurmaq istəyirdim. Qədim dedi ki, taxta işləri ilə məşğul olur. Təklif etdi ki, pul olsa, vaqonların sayını artırıb çoxlu pul qazana bilərik. Gedib elə stansiyanın yeməkxanasında oturduq. Elə oradaca bir salfet götürüb üstündə cızma-qara etdi. Dedi ki, biznes plan cızır. Taxtanın Rusiyadan vaqonla alıb ölkəyə gətirilməsinə qədər haralara pul vermək lazım olduğunu dedi. Yazıb-pozub sonda hər vaqona görə 2 min manat qazanc əldə etməyin mümkün olduğunu söylədi. Sözün düzü, ona inandım".

X.Yusibov deyir ki, buna görə də işə başlamaq üçün bankda saxladığı pulları çıxarıb və Q.Ədilova verib: "2014-cü ilin aprelində "Rabitəbank"dakı hesabımda olan 100 min manat pulu çıxarıb dollara çevirdim. Qədim demişdi ki, taxta dollarla alınıb-satılır. Aparıb 126 min 700 dollar ona verdim. Bizim bütün söhbətlərdə Rövşən Məhərrəmov iştirak edib. Pulu ona verəndə də buna şahid olub. Qədim Babayev pulu aldı və məni sanki unutdu. Aylarla vaqonlarla taxta gələcəyini dedi, Keşləyə gedib-gəlməkdən yoruldum. Deyirdi ki, Rusiyadan gələn taxtanı nisyə satıram, pulları alan kimi sənə çatan hissələri verəcəyəm. 2014-cü ilin aprelindən 2015-ci ilin noyabrına qədər mənə vəd olunan pulu vermədi. Hələ bu aralıqda məndən 200 manat aldı ki, az sonra qaytarıram. Həmin 200 manatdan yüzünü qaytardı, bu günə qədər 100 manatı da qaytarmayıb: "2015-ci ilin noyabrında isə dedi ki, 18 vaqon taxta yük qalıb Rusiyada. Əlavə 50 min manat da lazımdır ki, ödəyək, taxta gəlsin, sənin pulunu qaytarım. Mən də qohumuma zəng edib dedim ki, 50 min dollar borc versin. O da gəlib pulu verdi. Sonradan bildim ki, 18 vaqon yük söhbəti növbəti yalandır. O vaqonlara yüklənmiş taxtaları elə sərhəddən keçəndən sonra nağd pula satırmış. Məlum oldu ki, belə dələduzluq hərəkətini çox insana qarşı edir. Hazırda Nərimanov Rayon Polis İdarəsində müstəntiq Canəli Nuriyev tərəfindən Qədim Ədilovun dələduzluq hərəkətləri haqda araşdırma aparılır. Bu adam 2015-ci ilin yayında bizə deyirdi ki, Akif Çovdarov mənim dayımdır. Deyirdi ki, guya kimlərsə taxta alverində onu aldadıblar. Adlarını çəkdiyi şəxsləri sonradan MTN-nə çağırdılar. Məlum oldu ki, Qədim Ədilov özü onları aldadıb, pullarını alıb vermirmiş, üstəlik özlərindən də şikayət edirmiş. Gah polisin, gah da prokurorluğun onun arxasında dayandığını deyirdi".

X.Yusibov deyir ki, bu gün Keşlə Yük Stansiyasında onun kimi aldadılmış çox adam var: "Qədim Ədilovun 12 mobil telefonu var. Onun bir nömrəsinə zəng edirəm, söndürür. O birinə zəng edirəm cavab vermir. Keşləyə gedib-gələndə gördüm ki, orada mənim kimi xeyli adam var. Saytda Qədim Ədilovun açıqlamalarını oxuyandan sonra Nərimanov Rayon Polis İdarəsinə getdim. Ora şikayət vermişəm. Prezident Administrasiyasına, Baş Prokurorluğa da müraciət yolladım. Güman edirəm ki, bizim şikayətləri də araşdırıb müvafiq tədbir görüləcək".

❑ E.HÜSEYNOV

YENİ MÜSAVAT
N 41 (6362) 22 fevral 2016

# “BP-ni məhkəməyə vermişik”

**Mirvari Qəhrəmanlı:** “Bu şirkətdə həmişə əmək haqları dollarla göstərilib və onu manata çevirib ödəyirdilər, indi həmin müqavilə şərtinə əməl etmirlər...”

**“Yeni Müsavat”ın “QHT-lərdən reportaj” layihəsi davam edir. Bu dəfə Neftçilərin Hüquqlarını Müdafiə Təşkilatının qonağıyıq. Öncədən danışdığımız üçün gəlişimizdən xəbərdardırlar. Nizami rayonunda, 4 mərtəbəli yaşayış binasının 3-cü mərtəbəsində yerləşən ofisdə, günorta saat 15:00 radələrində hər kəs bizim yolumuzu gözləyir. İçəridə gülərüzlə, xoş sözlərlə qarşılanırıq. Gördüyümüz ilk mənzərə; Mirvari xanımın başı yaman qarışıqdır. Mühacirətdə olan qızı Mətanət Əzizova ilə internetdə yazışır. Bizdən üzrxahlıq edib yazışmaya davam edir. Daha sonra yazışmaq üçün telefonunu assistenti Günelə verir. Deyir ki, təşkilatdakı qızlar onun təkcə işçiləri yox, həm də mənəvi övladlarıdır. Günel isə həm iş həyatında, həm də bəzi şəxsi həyat məsələlərində Mirvari xanımın “sağ əli”dir. Ya insanlarının səmimiliyidən, ya da yaşayış binasında yerləşməyin verdiyi ab-havadan təşkilatın ofisi doğma bir evi xatırladır. Bura rəsmi iş yerindən çox bir evdir. İşçilər isə Mirvari xanımı ən çətin günlərdə belə tək qoymayan ailə üzvləridir. Təşkilatın əsas yükü 6 nəfərin çiyinlərindədir.**

Biri təşkilatın sədri Mirvari Qəhrəmanlı, digərləri isə mühasib, assistent, hüquqşünas, tərcüməçi və ekoloqdur. Mühasib bu gün işdə deyil, ekoloq isə bizə sonradan qatılır. İlk olaraq Mirvari xanımla hal-əhval tuturuq. Məlum olur ki, təşkilatın qara günləri artıq geridə qalıb, bank hesablarına qoyulan həbs götürülüb, yeni layihələr üzərində iş gedir. Buna görə də hər kəsin keyfi yerindədir.

- Mənim necə olmağım işimdən asılıdır. Əgər bu gün kiməsə kömək edə bilmişəmsə, məhkəmə uduşlarımız olubsa, çoxlu sayda insanın işini yoluna qoymuşuqsa, həmin gün mən yaxşı oluram. İnsanın səhhəti o zaman pis olur ki, o heç kimə lazım olmadığını hiss edir. O nə qocaya, nə cavana baxmır. Əgər sən bu gün kiməsə lazımsansa, deməli yaxşısan.

***- Təşkilatın işləri necə gedir? Maddi durumunuz, layihələriniz nə yerdədir?***

- Yəqin ki, 2014-cü ildə QHT-lərin yaşadığı fəlakətdən xəbəriniz oldu. Azərbaycanda vətəndaş cəmiyyətinə basqılar həyata keçirildi. Bizim də təşkilatımız güclü təzyiqlərə məruz qaldı. Təkcə təşkilatımız yox, həm də mənim ailəm təzyiqlərlə üzləşdi. Özüm insult keçirdim. Çox ağır vəziyyətə düşdük. O vaxt mən bir dəqiqə də işdən kənarlaşmadım. Üzümün bir tərəfi əyilmişdi və mən o vəziyyətdə həkim nəzarəti altında kompüter arxasında oturub çalışırdım. Biz varlığımızı sübut etməyə çalışırdıq ki, bu ölkəyə, bu insanlara lazımıq, vətəndaş cəmiyyəti ölkə üçün çox vacibdir. Və iyul ayının 8-də bizim bank hesabına, o cümlədən mənim depozit hesabıma həbs qoyuldu. Biz komandanı yığdıq və dedik ki, layihə olsa da, olmasa da biz işləməliyik. Biz 1996-cı ildən fəaliyyət göstəririk, məgər hər zaman layihəmiz olub? Hətta çayxanada yığışan vaxtlarımız olub, kiminsə ofisində yığışan vaxtlarımız olub. Ancaq fəaliyyətimiz davam edib. 2014-cü ildə də hər şeyə rəğmən fəaliyyətimizi davam elədik. Həmin ilin iyununda Dünya Çörək Təşkilatı şəffaf bir təşkilat olduğumuz üçün bizə 3 illik layihə verdi. Bu əmək qanunvericiliyinin icra mexanizminin qiymətləndirilməsi layihəsi idi. Lakin Ədliyyə Nazirliyi bizim layihəmizi qeydiyyata almadı. Biz dayanmadan işlədik, həm cəmiyyətlə, həm də dövlət qurumları ilə işləyirdik ki, hesabımızı açsınlar.





Sonra qrant üçün QHT Şurasına müraciət elədik və 8 aylıq layihə aldıq. Əvvəllər bizim layihələrimiz olduğu üçün onlara müraciət etmirdik. Düzdür, aldığımız qrant bizim fəaliyyətimiz üçün çox kiçik bir məbləğ idi, ancaq borclarımızı, ofis xərclərini ödədik, hesabatlarımızı verdik.

***- Bəs, necə oldu ki, hesabınız açıldı?***

- Zaman elə gətirdi ki, ötən ilin sentyabr ayında Beynəlxalq EİTİ koalisiyasının prezidenti Bakıya gəldi və ölkə başçısı ilə görüşdü . Görüşdə o məsələni də qaldırdı ki, bu koalisiyanın üzvləri ilə bağlı çətinlik var, bank hesabları bağlıdır. Çox şükür ki, bundan sonra bank hesablarımız açıldı, layihəmiz qeydiyyatdan keçdi, sərhəddəki yoxlamalar olmadı. Lakin təəssüflər olsun ki, biz həmin layihənin bir ilini itirmiş olduq. Bu çox böyük bir məbləğ idi, vəsait də avro ilə idi. 50 nəfərə yaxın insan bu layihədən əmək haqqı alırdı. İşsizliyə cüzi də olsa, köməyimiz olurdu.

İndi 2017-ci ilə kimi layihəmiz var. Mədən sənayesində şəffaflığın təmin olunması layihəsinə də həbs qoyulmuşdu, indi o layihəni də işləyirik. Bu layihəni Avropa Demokratiyaya Dəstək Fondu ilə işləyirdik. Düzdür, Azərbaycanda bəzi dövlət qurumlarında bu təşkilatla bağlı mənfi rəy var. Ancaq bizim onlarla işlədiyimiz layihə EİTİ çərçivəsində beynəlxalq təcrübənin öyrənilməsi və o təcrübədən yararlanaq, yaxşı cəhətləri götürüb Azərbaycana tətbiq etmək idi. Bununla bağlı kitab da hazırlamışıq, artıq çap olunub, “Kanal 13" İnternet Televiziyasında verilişimiz də var, bu yolla layihəni ictimailəşdirməyə çalışırıq.

Şükürlər olsun ki, pis günlərimizi geridə qaldı. İşlərimiz də həddindən artıq çoxdur. İşin əsas ağırlığı hüquqşünasımız Azər müəllimin (Azər Quliyev- L.N) üzərinə düşür. O indi əmək qanunvericiliyinə dəyişikliyin edilməsi ilə əlaqədar qanun layihəsi hazırlayır. Bu qanunda elə boşluqlar var ki, işsizliyə və ixtisarlara səbəb olur. Hazırladığımız layihə Milli Məclisə təqdim olunacaq.

***- Devalvasiya sizə necə təsir elədi?***

- Hesabımıza vəsaitlər dollar və avro ilə köçmüşdü deyə, devalvasiya bizim təşkilata müsbət təsir elədi. Mən çox sevinirəm ki, hər 3 aydan bir işçilərimin əmək müqaviləsinə dəyişiklik edəndə, onların maaşını da artıra bilirəm. Əmək haqlarına əlavələr etdikcə, mən ürəkdən sevinirəm ki, bu insanlar daha yaxşı əmək haqqı alacaqlar. Bizim həm də 3 regionda işləyirik. Orada da koordinatorlarımız var, onların da maaşını artırdım.

***- Sizcə, gəlirləri xarici valyuta ilə olan digər şirkətlər niyə işçilərin əmək haqlarını buna müvafiq olaraq artırmırlar?***

- Biz məhz bu məsələyə görə BP-ni məhkəməyə vermişik. Artıq məktub Nəsimi Rayon Məhkəməsinə gedib. Biz onlara sual verdik ki, devalvasiyadan sonra müqavilə bağladığınız işçilərlə əmək haqqını hansı valyuta ilə verirsiniz? Məsələn, BP-də əvvəl 1000 manat alan işçi, 1250 dollar alırdı, birinci devalvasiyadan sonra 630, indi isə 530 dollara düşüb. Mən onlara sual verdim ki, niyə işçilərinin maaşını devalvasiyaya uyğun olaraq artırmırsınız? Burada bir nüans da odur ki, əmək haqları dollarla göstərilib və onu manata çevirib ödəyirdilər. İndi isə fərq artıb, bu fərqdən yerdə qalan pullar hara gedir, nəyə xərclənir? Mənə dedilər ki, bu məlumat konfidensialdır. Mən isə dedim ki, mən BP-nin prezidentinin, vitse-prezidentinin Azərbaycandan apardığı pulları soruşmuram, qazancını soruşuram. Sən devalvasiyadan qazanmısan, bəs niyə yerli işçi qazanmamalıdır?

***- Təşkilatın dar günlərində kimlər ayrıldı, kimlər yanınızda qaldı?***

- Bizim ofisə kim gəlsə, deyir ki, sizin təşkilatın çox mehriban ab-havası var. Biz bir ailə kimiyik. Bizim çətin günlərimizdə, heç kim işdən ayrılmadı, məni tək qoymadılar. Hər dəqiqə qorxu içində idik, qapı döyüləndə də qorxurduq ki, gəldilər və bizi aparacaqlar. Şükür ki, o günlər geridə qaldı.

Düzdür, bəzən mübahisələrimiz də olur, xüsusən də Azər müəllimlə. Çox faydalı mübahisələrimiz olur, arqumentlər ortaya qoyuruq, çox vaxt da Azər müəllim udur, çünki o, hüquqşünasdır. Mən şanslı insanam ki, bu cür komandam var. (Zarafat da edir: Görürsən, nə yaxşı qızlarım var, hamısı da gözəldir).

***- İşçilərinizə yemək bişirdiyiniz vaxtlar olur? Mətbəxi necə idarə edirsiniz?***

- Qızlarım heç qoymur ki, mən yemək bişirim. Mətbəxə ancaq yemək yeməyə girirəm. Hə, bir də Azər müəllim üçün çay süzüb aparıram. Yeganə təşkilatdır ki, rəhbər işçiyə çay aparır. (Gülür)

***- Yəqin ki, ən böyük narahatlığınız mühacirətdə olan qızınız Mətanət xanımla bağlıdır...***

- Çox narahatam, həm də çox darıxıram... Hər gün danışırıq, yazışırıq. Allah heç bir ananı baladan ayırıb, gözü yaşlı qoymasın. Mətanət mənim böyük qızımdı, onun oğlu Camal da ilk nəvəmdir. O uşaqdan ötrü mənim burnumun ucu göynəyir. Uzaq yoldu, çoxlu xərc və vaxt tələb edir. Həm də mən bir həftədən artıq xaricdə yaşaya bilmirəm. Nə qədər tənqid etsək də, bu, bizim vətənimizdir. Mənim vətənə bağlılığım Şəkidəki, Rəsulzadə küçəsindəki evdən başlayır və bütün Azərbaycanı əhatə edir. Nə qədər ağır situasiyaya düşsəm də, ölkəni tərk etmədim. Ancaq qızıma və Camala həsrətəm. Onlar da mənim üçün darıxırlar. Yazışmaq yanında olmağı əvəz eləmir. Onu qucaqlamaq, bağrıma basmaq istəyirəm, ancaq əlim çatmır. (Gözləri dolur...)

Mirvari xanımla müsahibəni yekunlaşdırıb işçilərlə söhbətə keçirik. İlk olaraq, təşkilatın hüquqşünası Azər Quliyevlə hal-əhval tuturuq. Azər müəllim işlərinin gərgin olmasından danışır. Deyir ki, hər gün onlarla şikayətçi qarşılayır, dinləyir, onlara hüquqi yardım edir. Digər tərəfdən əmək qanunvericiliyinə düzəlişlər üzərində işləyir ki, təşkilat həmin düzəlişləri Milli Məclisə təqdim edəcək.

A.Quliyev iş şəraitindən də, ofisdəki mehribanlıqdan, Mirvari xanımın ona gətirdiyi çaylardan da razıdır. Sadəcə iş rejimi ilə bağlı onu deyir ki, bəzən gecə-gündüz çalışırlar, hansısa məhkəməni udmaq üçün durub-dincəlmək bilmirlər. Bəzən bir şikayətçi o qədər danışır ki, onların bir gününü alır. Bəzən əlavə bir gəlir üçün, vəkil kimi məhkəmələrə çıxmalı olur. Bu zaman da Mirvari xanım ona şərait yaradır.

Bütün bu çətinliklər isə onları daha da güclü edir və daha möhkəm birləşdirir. Artıq, onlar sadəcə işçi deyil, dar gün dostu, bir-birinin arxa- dayağıdırlar.

Təşkilatdakı qızlar, tərcüməçi Çinarə və Mirvari xanımın assistenti Günel də deyirlər ki, artıq neçə ildir burada çalışırlar və həm yaxşı, həm pis günlərində Mirvari xanımın yanında olublar. Nə qədər iş təklifi gəlsə də, bu işi üstün tutublar. Çünki həm maddi, həm mənəvi baxımdan burada arzularını reallaşdıra biliblər. Deyirlər ki, Mirvari xanım isə onlar üçün işdə həm ana əvəzi, həm də nümunədir. Bəzən şəxsi problemlərini belə onunla bölüşür, məsləhət alırlar.



Söhbətimiz çay süfrəsində davam edir. Azər Quliyev işdə üzləşdiyi çətinliklərdən danışır. Mirvari xanım isə bizi qonaq etdiyi “Ulun” çayının faydalarını sadalayır. Söhbətimizi yekunlaşdırıb ofisdən ayrılırıq.

Bizi qapıdan yola salan qəhrəmanlarımızla bir selfi də çəkib, sağollaşırıq. Bu qısamüddətli görüşdən bizdə qalan təəssürat isə belə oldu: Bura bir təşkilat deyil, həm də Mirvari xanımın ailə ocağıdır.

❑ **Nərgiz LİFTİYEVA**
❑ **Fotolar Məğrur Salmanov**

YENİ MÜSAVAT
N 41 (6362) 22 fevral 2016

# Arif Quliyev xanım jurnalisti təhqir etdi

**İki gün öncə Xalq artisti Arif Quliyevin rəhbərlik etdiyi teatrın bağlanılması ilə bağlı məlumat yayılmışdı. Məsələ ilə əlaqədar Xalq artisti ilə əlaqə saxlayıb bundan sonrakı fəaliyyəti ilə bağlı maraqlandıq. Ancaq aktyor qəfildən gözlənilmədən məlumatı yayan aznews.az saytının xanım jurnalisti Bahar Rüstəmli barəsində söyüş söyməyə başladı.**



Ona müraciət edən əməkdaşımızın da xanım olmasını nəzərə almayan Xalq artistinin söyüş dolu ifadələrini etik olaraq dərc etmirik. Arif Quliyevin dediklərindən bəziləri:

“Yalan yazıb. Adam ”otpuska"ya çıxmaz?! Pensiyaya çıxmaz?! (Söyüş söyməkdə davam edir). Mən Xalq artistiyəm, çıxmayım pensiyaya?! Müalicə olunmayım?! Heç dəxli var?! 66 yaşım var, istirahət etməyim?! Həmin teatr 20 il əvvəl bağlanıb. O ..., qanacaqsıza dedim ki, Sovet dağılanda mənim də teatrım maliyyə üzündən bağlandı (bərkdən gülür)".

Aktyor heç bir serial, film çəkilişlərində də iştirak etmədiyini deyib: “Rejissora gedib deməyəcəm ki, məni çək. Məsləhət olanda məni də dəvət edirlər. Mən 5 özəl filmə çəkilmişəm. İndi isə pensiyadayam, prezident təqaüdçüsüyəm, istirahət edirəm, burda nə qəribə şey var?! Kim ki, barəmdə tərsinə yazıb, onun neslini də, özünü də, hamısını söyürəm”.

Qeyd edək ki, gülüş ustası Arif Quliyevin rəhbərlik etdiyi Özəl Satira Teatrının bağlanılması ilə bağlı aznews.az-da getmiş, Bahar Rüstəmlinin müəllifi olduğu yazıda bildirilirdi ki, adı çəkilən teatr maliyyə çatışmazlığı ucbatından fəaliyyətini dayandırıb.

Xatırladaq ki, ötən il də teatrın bağlanılması ilə bağlı məlumatlar yayılmışdı. Arif Quliyev müsavat.com-a açıqlama verərək məlumatı təkzib etmiş və bildirmişdi ki, maddi gəliri məhz Özəl Satira Teatrından gəlir.

❑ Xalidə GƏRAY

# “Qarabağ Moskva” klubuna Bakıdan sərt etirazlar

## Natiq Muxtarlı: “Klubu yaradanlar əvvəlcə bütün maliyyə çətinliklərini nəzərə almalı idilər”

## Fazil Mustafa: “İşin maddi bazasını tapmamış Qarabağ adını niyə gündəmə gətirirsiniz?”

**Moskvada yaşayan azərbaycanlıların yaratdığı və həvəskar liqada çıxış edən “Qarabağ Moskva” futzal klubunu ermənilər almaq istəyir. Ermənilər klubun onlara satılması üçün oyunçulara, habelə klub rəhbərliyinə təklif göndəriblər.**

Sponsoru olmayan klubun futbolçuları səfər oyunlarına öz hesablarına getdiklərini deyirlər. Klubun oyunçusu və eyni zamanda məşqçisi olan Elnur Vəliyev mətbuata açıqlamasında deyib ki, ermənilərin Moskvadakı “Artsax” futzal komandası klubu almaq istəyir. Məşqçinin sözlərinə görə, oyunçular bu təklifi qəbul etməyiblər. Həmyerlilərimiz deyir ki, Azərbaycandan fərqli olaraq ermənilərin bu kluba maraq göstərməsi onları məyus edir.

Bu mövzu sosial şəbəkələrdə də müzakirə mövzusu olub. Rusiyada yaşayan həmyerlilərimizə dəstəyin vacib olduğunu düşünənlər var və onların fikrincə, ermənilərin bu təklifinə cavab olaraq azərbaycanlılar öz klublarına sahib çıxmalıdırlar. Lakin bu məsələ ilə bağlı fərqli fikirdə olanlar da çoxluq təşkil edir. Əsasən də idman jurnalistləri belə fikirlər səsləndirirlər ki, Qarabağ adından istifadə edib komanda yaratmaq, daha sonra klubu saxlamaq üçün pul axtarmaq yolverilməzdir.




İdman yazarı Natiq Muxtarlı da bu cür düşünənlərdəndir. Onun fikrincə, Qarabağın adından istifadə edərək klub yaradılması və bundan sonra maliyyə məsələsini ortaya qoyaraq kimlərdənsə yardım istənilməsi qəbul edilməzdir: “Qarabağın adından istifadə edib alverlə məşğul olan insanlar var. Bu cür insanlar təkcə Azərbaycanda yaşamır. Bu məsələdə həmin kluba maliyyə yardımı etməyən insanları yox, o, klubu yaradanları qınayıram. Birincisi, klubu yaradanlar əvvəlcə bütün maliyyə çətinliklərini nəzərə almalı idilər ki, sonradan qapı-qapı düşüb pul axtramasınlar, Qarabağın və Azərbaycanın adına xələl gətirməsinlər”.

Klubu yaradanlara sərt ismarıc göndərən N.Muxtarlı bildirir ki, yaranan vəziyyət Azərbaycanın da, Qarabağın da adına ləkədir: “Klubu yaradıblar, amma indi yadlarına düşüb ki, ayda 2 min dolları yoxdur ki, komandanı saxlasınlar. Əgər pul yoxdursa, Qarabağ adından manipulyasiya etməyə sizə kim ixtiyar verirdi? Belə vətənpərvərsinizsə, əvvəl büdcəni formalaşdırıb sonra komanda yaradardınız ki, ölkənin də Qarabağın da adına ləkə gətirməzdiniz. Onlar AFFA-ya da, Azərbaycandakı iş adamlarına da müraciət ediblər. Bu iyrənc bir üsuldur. Rusiyada azərbaycanlılar var ki, bir gecədə ”nataşalara" 100-200 min pul xərcləyirlər. Bunların 2 min pulu yoxdur ki, kluba kömək etsinlər? Bu işin arxasında vətənpərvərlik yoxdur.

Bu məsələni birdəfəlik dövlət səviyyəsində həll etmək lazımdır. Heç kimə icazə verilməməlidir ki, Qarabağ, Şuşa, Həkəri, Zəngilən, Qubadlı adında klub yaratsınlar. Əvvəlcə bu adamlar büdcəni ortaya qoymalıdır. Əgər edə bilmirlərsə, bu komandaları qeydiyyata almaq lazım deyil. Elə bunun adı vətənə xəyanətdir. Rusiyada olan həmkarlarımız da birdəfəlik klubu buraxsınlar. Buraxsınlar ki, bundan artıq da ermənilər qarşısında biabırçılıq etməsinlər".

Deputat Fazil Mustafa da maliyyə məsələsini həll etmədən Qarabağ adlı klubun yaradılmasından və indi də yaranan vəziyyətdən narazıdır.

Deputatın sözlərinə görə, plansız şəkildə görülən bir işdən sonra Qarabağ adını gündəmə gətirib maliyyə axtarmaq doğru deyil: “Azərbaycanlı bir iş görməyə başlayanda 10 il sonranın azuqəsini görmədən 2 aylıq imkanına görə iş görür. Sonra da pul axtarmağa başlayır. Bu işi görürsünüzsə, fundamental ciddi bir məsələdir və adı da Qarabağ qoyulub. İşin maddi bazasını tapmamış Qarabağ adını niyə gündəmə gətirirsiniz? Bunun vətənpərvərlik olmasını başa düşmək olar. Əgər vətənpərvərlikdirsə, Qarabağ üçün mahnı oxuyun. Futbol ağır məsələdir, klub saxlamaq asan iş deyil. İndi AFFA və ya başqa kimlərsə, hər yerdə yaradılan Qarabağ adlı kluba pul ayırmalıdır? Bu vətəndaşlıq təşəbbüsüdür. Orada yaşayan 100-200 azərbaycanlını yığıb bu işi görə bilmirsinizsə, hər işi dövlətin üzərinə atmaq olmaz. Bu cür məsələlərdə spekulyasiya etmək doğru deyil. Vətənpərvərlik etmək istəyirsinizsə, əvvəlcə imkanları müəyyən etmək lazımdır. Maliyyə məsələsini əvvəlcədən nəzərə alıb iş görmək lazımdır. Sonradan bunun kimlərinsə üstünü atılmasını doğru hesab etmirəm”.

Qarabağ adının təbliğat missiyasını yerinə yetirən klubumuzun olduğuna diqqət çəkən F.Mustafa real işlərin görülməsinin vacib olduğunu deyir: “Təşəbbüs yaxşıdır, amma imkanlar daxilində etmək lazımdır. Bu cür prosesə girən adam gərək gəlir-çıxarını hesablasın. Əgər AFFA-dan yardım gözləyirlərsə, bu doğru deyil. AFFA bu gün diqqəti uşaq futboluna, Azərbaycan futboluna yönəltməlidir. "Kənarda hansısa təbliğat məqsədi ilə klub yaratmaq əvəzində ölkə futboluna diqqət ayırmaq lazımdır. Ağdamın “Qarabağ” futbol klubu ölkənin və Qarabağ adının təbliğat missiyasını öz üzərinə götürüb və bunu layiqincə də yerinə yetirir. Elə əlavə gücü bu kluba yönləndirib Avropada daha böyük uğur qazanmasına yardım etmək lazımdır".

❑ İlkin MURADOV

# O, bizə “hes zad” eləyəmməz!



Sevinc TELMANQIZI
s.qurbanova@gmail.com

**Onunla bir il öncə tanış olduq. Soyuq bir fevral günü idi. Aləm dəymişdi bir-birinə. Dollarla krediti olanlar başılovlu bir-birinə zəng edirdi. Bankların qabağı insan seli. Necə edəcəyik, nə təhər çıxacağıq bu vəziyyətdən deyə iki əl, bir baş qalmışdıq hamımız. Amma elimizin adəti var. Gələnin üzünə qapını bağlamazlar, qonaqpərvərlik nümayiş etdirərlər. Adı belə dilimizə yatmayan “devalvasiya” şanlı elimizə qədəm qoydu. Gəliş o gəliş. Ardınca birini də gətirdi, deyilənə görə yaxın aylarda daha biri gələcək... Amma biz dözümlü xalqıq...**

Bəli, dözümlü olmasaydıq, bütün bu gördüklərimiz yaşanmazdı. İngilislər demiş, hətta “cool” millətik. Qan qussaq da, qızıl şərbət içmişik havası yaradırıq. El gözünə nələr edərik, nələr... Təki heç kim bizim kasıbladığımızı bilməsin, təki “düşdülər” deyilməsin. Zarafat deyil, iş yerləri bağlanır, dükan-bazar od qiymətinədir, biz ölkəmizdə Formula 1 yarışları keçirəcəyik. Özü də 10 il dalbadal. Böyük ehtimalla Avropa Oyunlarını da yenidən boynumuza götürəcəyik. Belə situasiyalarda ölkəmiz kimə oxşayır, bilirsizmi? Borc-xərclə, kreditlə bahalı Ayfon alıb, ona kontur yükləyə bilməyən, balansını artırmaq üçün iki gündən bir 1.50 manatlıq kredit götürən qara kurtkalı qaqaşlara. Kədərli, məsum, xəyanəti bağışlamayan... “qürurlu” qaqaşlara. İllər öncə bir tarix müəllimimiz vardı. “Malboro” qutusunun içinə “Astra” alıb dolduranda sinfin oğlanları görmüşdü. Bax onun kimidir bizim həyatımız da.

Biz getmədik, amma gedənlər danışır. 14 fevralda şəhərin bərkgedən restoranlarının hamısı full imiş. Rezervasiyası olmayanları qapıdan geri qaytarıblar. Məlum olub ki, oğulun 50 manata görə atasını bıçaqladığı, hər gün pul-para dərdindən intihar edənlərin məmləkətində... hamı sevgililər gününə önəm verirmiş. Əks arqument səsləndirənlər də var. Deyirlər ki, “onlar əhalinin cəmi 10 faizini təşkil edir, normaldır. Yerdə qalanlar heç soyuducusunu doldura bilmir”. Amma hələ ki, faizi hesablayan qurum olmadığı üçün biz gözümüzlə gördüklərimizə inanırıq.

Qış istirahət mərkəzlərindən birinə yolum düşdü bu gün. Bir basabas, bir basabas... İnsanlar özlərinə heç nədə korluq vermir. Əyləncələrin hamısından istifadə edir, bahalı restoranlarda yemək yeyirdilər. Yaxşı, hesab edək ki, bu da başqa 10 faizdir. Ümumi 20 faiz elədimi?

Toylar, nişanlar, mərasimlər... Toy mövsümü başlanıb, insanlar dükan-bazarın canına düşüblər. Gözünə döndüyüm işbazlar bir addım belə geri çəkilməyiblər. İqtisadiyyatın qanunlarına inansaq, maddi böhran olan ölkələrdə super endirimlər, güzəşt paketləri olmalıdır. Bizdə qanunları hansı əllə yazırlar, bilinməz. Əsas odu ki, qiymətlər azalmır, güzəştlər tətbiq olunmur.

Bilirsizmi niyə? Çünki işbazlar da bu millətin nümayəndəsidi, yad planetdən gəlməyiblər ki. Bilirlər camaatın zəif yerini. Anlayırlar ki, sırf qonşunun bağrı çartlasın deyə edilən bəzi işlər var. Devalvasiyadırsa, insanlar çox benzin işlədən maşınını satıb, daha ekonomik olanını almalıdır məntiqlə. Geyiminə daha az pul xərcləməlidir, əyləncəsinə də həmçinin. Bizdə bunların heç biri baş vermir. Amma xərcini ödəyə bilməyəcəkləri işlərin altına elə şüursuzca çiyin verirlər ki. 50 manatlıq menyusu olan toy keçirir məsələn. Toyun sonunda da restorana pulunu ödəyə bilmədiyi üçün bəy girov götürülür. “El gözünə” menyu. El toyu görür, toydan sonrasını yox... Əsas məsələ budur.

Adına ziyalı təbəqəsi deyilən müəllimlərin olduğu məkana - məktəblərə hərdən göz yetirin. Koridorda ikicə dəqiqə dayanmaq bəs edir ki, özünü hansısa xəz dəri mağazasında, ya da xəz dəri nümayişində hiss edəsən. Anladıq, hamısı təbii deyil, amma bunun ən ucuzunun qiyməti 500-600 manatdan başlanır axı. Nədir bu bir-birinin bəhsinə xəz dəriyə bürünmək? Adlarına pedaqoq deyilir, amma dünyanın hər yerində uşaqlara heyvan sevgisi aşılanır. Bizdə isə heyvanların dərisinin diri-diri soyulub, ondan hazırlanan kürkləri nümayişkaranə şəkildə bir-birinin gözünə soxmaqla məşğuldular. Axı onlar maaşına görə ən aşağı təbəqə sayılır. Günlərini individual məşğələlərə görə qətl edən təbəqədən danışırıq. Dustaq həyatı yaşayırlar rəsmən - məşğələ, məşğələ, məşğələ. Axırda da kürk? Bu nə məntiq?

Bu özündənrazılıq, saxta qürur ki bizdə var... Heç bir maddi böhran bizi yıxa bilməyəcək. İndi bilmirəm, bu sonluq yaxşıdır, ya pis?

# Boz ay girdi, sabah ilk çərşənbə - Su çərşənbəsidir

## Novruzadək çəkəcək bu ayın əsas xüsusiyyətləri nədir?..

**Artıq iki gündür, yəni fevralın 20-dən etibarən Kiçik çillə öz yerini Boz aya verib. Boz ay, keçmiş adət-ənənəyə görə, Novruz bayramı gəlməzdən əvvəl olan dövrə verilmiş addır. Bu ay Kiçik çillənin qurtardığı vaxtdan yazın ilk gününə, yəni martın 21-nə qədər olan dövrdür.**



Bu ay Şərq xalqlarının təqviminə görə, qış fəslinin sonuncu dövrüdür. Boz ay xalq arasında həm də "alaçalpov", "çilləbeçə", "ağlar-gülər", "cəmlələr" kimi də adlanır. Şərq xalqlarının inanclarına görə, Boz ayda adından da göründüyü kimi gah qızaran, gah da bozaran hava şəraiti hakim olur. Hava bir gün isti, bir gün soyuq, bir gün mülayim, bir gün yağışlı olur. Hətta bir gün ərzində hava bir neçə dəfə kəskin dəyişə bilir.

Bu təbiət hadisələri ilə bağlı xalq içində bu dəyişkənlik 4 fəslin (yaz, yay, payız, qış) özünü - hərəsinin bir gün və ya bir günün içində nümayiş etdirməsi kimi qiymətləndirilir. Düz bir ay davam edən bu dövr yumşaq və narın yağışlı günlərin çoxluğu ilə seçilir. Bu isə Boz ayın özündən çox, qışdan yaza olan keçid və bu keçiddə təbiətin dəyişkənliyinə əsaslanır.

Tarixi mənbələrə görə, insanlar Kiçik çillə bitən kimi bayram hazırlıqlarına başlayır. Həyət-baca təmizlənir, qohum-əqrəba yada salınır. Evlər təmizlənərkən əşyaların da yeri dəyişdirilir ki, keçən ildən ağırlıq qalmasın. Qədim insan əkinçilik üçün hazırlığa da Boz aydan başlayırdı. Əkin sahələri səliqəyə salınır, alətlər yığılır, itilənirdi. Əkin üçün lazım olan toxumlar çeşidlənir, qoşquya qoşulacaq heyvanlara xüsusi qulluq göstərilməyə başlayırdı. Qısası, qədim insan üçün həyat Boz aydan etibarən başlayırdı. Novruz bayramının müjdəçiləri olan çərşənbələr də məhz bu dövrə təsadüf edir.

Xatırladaq ki, bu il Azərbaycanda baharın müjdəçisi olan ilk çərşənbə - Su çərşənbəsi fevralın 23-də, Od çərşənbəsi martın 1-də, Yel çərşənbəsi martın 8-də, ilaxır olan Torpaq çərşənbəsi isə martın 15-i qeyd ediləcək. Çərşənbələr Su, Od, Torpaq və Yel (hava) olmaqla sıralanaraq 4 çərşənbəyə bölünür. Çərşənbələrin bu şəkildə adlanması belə təsadüfi deyil və özündə insanın yaradıldığı ünsürləri ehtiva edir. Belə ki, ürfan fəlsəfəsi Allahın insanı su, od, torpaq və hava kimi dörd ünsürdən yaratdığı, batininə isə ruhu yerləşdirdiyi qənaətindədir. Məhz Boz ayda torpağı əkib-becərməyə hazırlayan yaz dumanları başlayır. Qışda da qış dumanları torpağın üzərinə enir. Ona görə də xalq içində "qış dumanı qar gətirər, yaz dumanı bar gətirər" kimi müdrik deyim formalaşıb.

Yaz dumanlarının yumşaltdığı torpaq tədricən arata, şumlamağa hazırlanır. Folklorlara görə, yazın ilk əlaməti leyləklərin qayıdışıdır. Bu dövrdə havalar bir neçə gün soyuq olur. Buna el arasında "leylək boranı" deyirlər. İnanclara görə, leylək göründüsə, demək yaz gəlib.

Azərbaycanda qeyd edilən "Xızr-Zində" ( Əbədi Xızr) bayramı da Boz ayın içindədir. Həm də Boz ayın son həftəsinə "tüstü qaytaran" həftə deyilir. Bu isə həmin müddətdə əsən küləklərin tüstü bacalarından tüstüləri təkrar evin daxilinə qaytarması ilə əlaqəlidir.

❑ **Günel MANAFLI**

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)

**Tel: (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

**Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.**

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**

**Əlaqə nömrəsi (050) 264 49 99**

**Elan**

**Təcili Hacıqabulda hər bir şəraiti olan- daimi suyu , işıgı, 3 yaşayış evi, böyük tövləsi, yem anbarı, 3 ha meyvə bagı olan ferma, ərazisi 0.5 ha olan yol kənarında yerləşən fermaya bitişik restoranla birgə satılır.**

**Sənədlər qaydasindadır. Qiyməti 150.000 $.**

**Əlaqə nömrəsi : 050-214-40-53**

***

**Amerika və Kanada da təhsil və səyahət üçün bizə muraciət edə bilərsiz**

**e-mail: travelaz2016@gmai.com**

**whatsapp: +1 845 300 7030**

**Tel: +99451 635 2408**



# İkiqat Azərbaycan çempionu öz maşınında güllələndi

**Azərbaycanda gənc idmançı dünyasını dəyişib. Musavat.com xəbər verir ki, kikboks üzrə ikiqat Azərbaycan çempionu Elmir Cəlilov vəfat edib. Bu barədə deputat, Azərbaycan Kikboksing Federasiyasının prezidenti Adil Əliyev Facebook-da yazıb. O, gənc idmançının ölümünün səbəbini açıqlamayıb. Azərbaycan Kikboksinq Federasiyası mərhum idmançının ailəsinə başsağlığı verib.**

Musavat.com-un əldə etdiyi məlumata görə, 32 yaşlı idmançı qətlə yetirilib. Hadisə Gəncədə baş verib. Şəhərin Əttarlar küçəsində, "Kəpəz" mehmanxanasının qarşısında Elmir Cəlilov öz avtomobilində güllələnib.

Onun idmançı dostu Anar Məmmədov Musavat.com-a bildirib ki, Elmir Cəlilov yaşı ilə əlaqədar bir müddət əvvəl idmandan uzaqlaşıb. O, Gəncədə bərbərliklə məşğul imiş: "Çox mərifətli oğlan idi. Gəncədə ən hörmətli idmançılardan biri idi". Onun sözlərinə görə, Elmir Cəlilov kriminal aləmdən uzaq olub, heç kimlə ədavəti yox imiş.

Elmir Cəlilov ailəlidir. İki övladı - qızı və oğlu var. Həyat yoldaşı hamilədir və təxminən iki ay sonra üçüncü övladları dünyaya gəlməlidir. Gəncədəki mənbələr Musavat.com-a qətlin səbəbləri ilə bağlı mövcud ehtimalları da açıqlayıb. Hazırda qətllə bağlı iki versiya dolaşır - namus məsələsi və ya borc pul söhbəti.

Faktla bağlı Gəncə Şəhər Prokurorluğunda araşdırma aparılır. Qətli törədən Anar Tağıyev saxlanılıb.

# İcra başçısı plakatı çıxarıb yerinə ağac əkdirir

## Ramiz Yediyarov büdcə puluna alınan ağacları niyə şaxtada məhv etdirib?



**Gədəbəyin icra başçısı Ramiz Yediyarovun yerli sahibkarlığa qarşı addımları bütün sərhədləri aşıb və artıq gülünc görkəm alıb. Gədəbəydən aldığımız videoda https://www.youtube.com/watch?v=hqtQ8waTQhU Ramiz Yediyarovun güclü qar yağışı altında ağac əkdirdiyi əks olunub.**

Biçarə icra hakimiyyəti işçiləri beton üzərinə tökülmüş torpaqda quyu qazıb ağac əkməklə icra başçısının tapşırığını yerinə yetirirlər.

Məlumat üçün deyək ki, ağac əkilmək üçün seçilən yer sahibkar Fəxrəddin Bağırovun obyektinin qapısının ağzıdır. 4 il əvvəl Ramiz Yediyarov Gədəbəyə icra başçısı təyin olunandan sonra F.Bağırovun obyektini sökmək qərarı verib. Lakin məhkəmə icra başçısının istəyinin əsassız olduğunu əsas gətirib. Buna görə də obyekt dağıdılmayıb. Əvəzində fəaliyyətdə olan obyektin qapısı tikilib, tikilmiş hasarın üzərinə prezidentin sahibkarlığın inkişafı ilə bağlı sözləri yazılmış plakat vurulub. İcra başçısı elan edib ki, plakatın sökülməsi sahibkarın dövlətə qarşı getməsi kimi qəbul olunacaq. Sahibkar 4 il ərzində ən müxtəlif instansiyalara müraciət etməklə üzləşdiyi qanunsuzluğun aradan qaldırılmasını istəyib. Nəhayətdə məsələ mətbuata çıxarılıb və 2016-cı ilin fevralında sahibkarın obyektinin önünə vurulmuş plakatın sökülməsi qərarı verilib.

İcra başçısının "plakatı özünüz sökün" ismarıcı sahibkar tərəfindən qəbul olunmayıb. Bundan bir neçə gün sonra, fevralın 18-dən 19-na keçən gecə YAP-ın rayon təşkilatının gözətçisi Məmmədəli və bir neçə şəxs gecə yarısı əraziyə gəlib və plakatı oğurlayıblar.

Fevralın 20-də isə icra başçısının göstərişinə əsasən oğurlanan plakatın yerində, sahibkarın obyektinin qapısının ağzında ağaclar əkilib. İcra başçısının hikkəli qərarı Gədəbəydə qar yağışı, mənfi 10 dərəcədən yuxarı şaxtada ağac əkilməsi ənənəsinin bünövrəsini də qoyub.

Görünür, prezident İlham Əliyevin büdcə vəsaitindən səmərəli istifadə haqda qeydləri, sahibkarlara dəstək verilməsi haqda davamlı çıxışları Gədəbəyə, rayonun icra hakimiyyətinə gedib çatmayıb. Çatsaydı, büdcə puluna alınan ağaclar şaxtada əkilməklə məhv edilməzdi...

❑ **E.MƏMMƏDƏLİYEV**

***P.S.** Yazıda adı çəkilən hər kəsi, o cümlədən Ramiz Yediyarovu da dinləməyə hazırıq.*



# Ağlasığmaz bahalı toylar...

## Və ucuz toy keçirməyin yolları - "Dünya evinə" girməyin də kitabı yazılıb; 60 milyon dollarlıq toydan 10 min manatlıq ziyafətlərə...

**"Yeni Müsavat" son günlərdə toy biznesi ilə bağlı bir neçə yazı hazırlayıb. Manatın devalvasiyasından sonra toy biznesində özünü göstərən durğunluğun səbəbləri, heç şübhəsiz ki, bahalı toy məsrəfləridir. İnsanlarımız qənaət, "kəmər sıxma" planları qursa da, sonuc dəyişmir.**

Amma mövzunun aktual olduğunu nəzərə alıb, yenidən toy sektoru barədə bilmədiklərimizi yada salaq. Öncə dünyanın ən bahalı toylarının siyahısına nəzər salaq. 1981-ci ildə Britaniya şahzadəsi Çarlz və Diana Spenserin toy mərasiminə 3 milyon funt sterlinqə yaxın pul xərclənib. 21-ci əsrdə isə bundan dəfələrlə bahalı toylar keçirilib. 21-ci əsrin ən bahalı toy mərasimləri isə aşağıdakı kimidir:

Vaniş Mittal və Amit Batia - 60 milyon dollar

Şahzadə Uilyam və Keyt Middlton - 34 milyon dollar

Andrey Melniçenko və Aleksandra Nikoliç - 30 milyon dollar

Kim Kardaşyan və Kris Hamfris - 10 milyon dollar

Ueyn Runi və Kolin Maklafin - 8 milyon dollar

Çelsi Klinton və Mark Mezvinski - 5 milyon dollar

Layza Minelli və Devid Gest - 3.5 milyon dollar

Hiter Mills və Pol Makkartni - 3 milyon dollar

Elizabet Herli və Arun Nayar - 2.5 milyon dollar

Tom Krus və Keyti Holms - 2 million dollar.

Saray toyu yarım milyon manatdan bahadır.

Daha çox Türkiyə seriallarından tanış olduğumuz mənzərədir. Varlılar toylarını bir qayda olaraq Çırağan Sarayında keçirirlər və bu, onlar üçün həm də nüfuz sayılır. Xatırladaq ki, sarayda standart bir menyu 300 manatdan başlayır. Amma 900 nəfərlik toy yeməyi 270 manat tutur. Daha sonrakı ehtiyaclar üçün toy təşkilatçılığı ilə məşğul olan firmalarla danışıq aparılır. Seçilən materiallara görə sarayın bəzənməsi 900 nəfər üçün 8500 manatdan başlayıb, 180 min manata qədər artır. Orkestr üçün də 25 min manat ayırmaq lazımdır. Tort, fotoqraf və toy maşınını da əlavə edəndə bu sarayda toy keçirmənin qiyməti 500 min manatı keçir. Sarayda qeyri-adi istəklərə də yer verilir. Yay vaxtı göydən süni qar yağdıranlar, adını göy üzünə yazdıranlar da bu siyahıda özünə yer tutur. Toyunu "Çırağan Palac"da etmək istəyənlərə bəzi jestlər də edilir. Məsələn, dəniz mənzərəli bal ayı otağında gül yarpaqları ilə qarşılanma, şampanla birgə şokalad, təzə-tər gül, qırmızı sevgi tortu, özəl yataq dəstləri, üzərində altın rəngli ürək şəkli olan hamam xalatı, şamlarla işıqlandırılmış romantik atmosfer və səhər otağa şampanla səhər yeməyi gətirilməsi....bu siyahıya daxildir.

"Çırağan" Sarayında toy etmək üçün əvvəlcədən hazırlıq lazımdır. Çünki indidən 2013-cü ilin yay ayında toy etmək istəyənlər rezervasiya üçün müraciət edirlər. Bu günə qədər təkcə türk yox, dünya milyonerlərinin də çoxu "hə" demək üçün məhz bu məkanı tərcih ediblər. Çırağan Palaceda 50-900 nəfərlik toylar keçirilə bilir.

Sarayda standart bir menyu 300 manatdan başlayır. Amma 900 nəfərlik toy yeməyi 270 manat tutur. Daha sonrakı ehtiyaclar üçün toy təşkilatçılığı ilə məşğul olan firmalarla danışıq aparılır. Seçilən materiallara görə sarayın bəzənməsi 900 nəfər üçün 8500 manatdan başlayıb, 180 min manata qədər artır. Orkestr üçün də 25 min manat ayırmaq lazımdır. Tort, fotoqraf və toy maşınını da əlavə edəndə bu sarayda toy keçirmənin qiyməti 500 min manatı keçir. Sarayda qeyri-adi istəklərə də yer verilir.

Gəlin saraydakı toyun məsrəflərini ayrı-ayrı nəzərdən keçirək:

900 nəfərlik yemək - 270 min manat

Orkestr - 25 min manat

Sarayın bəzədilməsi - 180 min manat

Vertolyotla transfer - 500 manat

200 şüşə Dom Perignon şərab - 75 min manat

HD kamera çəkilişi- 3500 manat

Oriental şou - 2500 manat

Cəmi: 550 min dollar

Ucuz toy keçirməyin yolları

Amma bu məsrəflərə tab gətirə bilməyənlər ucuz toy keçirmək üçün qızıl qaydalardan yararlana bilər. Onlar aşağıdakılardır:

1. Toy gününü o qədər də tərcih edilməyən bir gün seçmək məsləhətdir. İngiltərənin "Brides" jurnalının baş redaktoru Antonia Van der Meer hesab edir ki, toy günü həftə içi keçirilərsə, toy sahibi qazanclı çıxa bilər.

2. Ekspertlər hesab edir ki, yeməkli toy əvəzinə "kokteyl toy" tərcih edilməlidir. Bu halda həm məsrəfiniz az olacaq, həm də yeməkli toyda yaşanan sıxıntılardan canınız qurtaracaq. Hərçənd ki, bu seçim azərbaycanlılar üçün qeyri-mümkünə çevrilib. 200 kişinin iştirakı ilə keçirilən yeməkli və içkili bir toyun minimum maliyyəsi 5 min manat olduğu halda, 200 nəfərlik içkili kokteylin maliyyəsi 2 min manatdır.

3. Gəlin və bəy paltarını kirayə götürün. Bu bəndə Azərbaycanda ancaq gəlinlər riayət edir.

4. Toy təşkilatçılığı ilə məşğul olan şirkətlərdən uzaq durun. Çünki bu şirkətlər toyun bütün detalları ilə maraqlansalar da, əvəzində toy məsrəflərinin 30-50 faizinə qədərini sizdən tələb edirlər.

5. Toy süfrəsindən içkini çıxarın. Bu halda məsrəfləriniz də ikiqat azalacaq.

60 milyon avroluq toy niyə etiraz doğurdu?

2 il əvvəl İspaniyada 60 milyon avroluq hind toyu baş tutub. İspaniyanın Barselona şəhərində baş tutan toy ispanları təəccübləndirməklə yanaşı, bir qədər də etirazına səbəb olub.

Dünyanın ən zəngin ailələrindən hesab edilən "Arkelor Mittal" firmasının rəhbəri Lakşmi Mittal 26 yaşındakı bacısı oğluna böyük bir toy mərasimi təşkil edib. Barselonada baş tutan toy nə az, nə çox tam 3 gün davam edib. Məsələ ilə əlaqədar olaraq "Arts otel" 3 günlük cütlüyün istifadəsinə verilib. İspanlar isə onların dəyərli məkanlarından hesab edilən "Arts otel"in pul qarşılığında hindistanlılara kirayə verilməsinə qarşı çıxıblar.

İspanların etirazını görən London və Hindistanın ən zəngin iş adamı Mittal mediaya açıqlamasında "pul ilə hər şeyi almaq mümkündür"- deyib.

Qeyd edək ki, 63 yaşlı London və Hindistanın ən zəngin iş adamı olan Lakşmi Mittal 31.1 milyard dollarlıq sərvəti ilə dünyanın 6-cı ən zəngin adamı hesab edilir.

Gəlinə özü ağırlığında qızıle hansı ölkədə verilir?

Meksikada toyun əsas təşkilatçıları gəlin və bəyin xaç valideynləri olur. Adətə görə onlar həm də tədbirin bütün maliyyə xərclərini də öz üzərlərinə götürürlər.

Yaponiyada toylar əsasən yaz və payızda olur. Yapon toyları daha çox şouya bənzəyir. Toya dəvət olunanlar pul hədiyyə edirlər. Pulun məbləği qonaqla yeni evlənənlər arasındakı münasibətin nə qədər səmimiliyindən asılıdır. Yaponiyada toy ərzində gəlin üç dəfə paltar dəyişməlidir. Onlar əvvəlcə ağ, sonra qırmızı kimano, axırda isə adi avropasayağı gəlin paltarı geyinməlidir.









Macarıstanda toya çağırılan bütün kişi qonaqlar gəlinlə rəqs edə bilərlər. Rəqs edən pul verərsə, gəlin mütləq onu öpməlidir.

Afrikanın bəzi bölgələrində oğlan tərəfi qızı ailəsindən istəyəndən sonra qızın ailəsi onu verərsə, qıza pul və fıstıq verirlər. Qız fıstığı oğlanla bölüşür. Cütlüyün bir-birini tapmasında köməyi keçən şəxsə də hədiyyə verilir.

Çex toylarının sonunda gəlinin fatasını və bəyin ayaqqabılarını qonaqlar arasında fırladırlar. Qonaqlar cütlüyün bal ayı xərclərinə kömək üçün ayaqqabı və fatanın içinə pul qoyurlar.

Almaniyada gəlinlər toyda fatanın yerinə bər-bəzək əşyalarından və güllərdən düzəldilmiş tac taxırlar.

Toyun axırında cütlük bir odun parçasını mişarla kəsirlər. Bunun mənası odur ki, onların ömürlərinin sonuna qədər bütün çətinliklərə qarşı bu cür birlikdə sinə gərəcəklər.

Türkmənistanda türkmən gəlinlərinin toyda geyindiyi geyim və zinət əşyalarının ağırlığı elə gəlinin öz çəkisi qədər olur. Təkcə bəzək-düzək əşyalarının ağırlığı 36 kiloqram, "kürte" adlandırılan əl işləməli gəlinlik fatası və paltarın çəkisi isə 40 kiloqramdan çox olur.

Mərakeşdə toylar 7 gün çəkir. İlk gün gəlin süd vannası qəbul edir, sonra əllərinə və ayaqlarına xına yaxılır. Toy günlərində gəlin tez-tez paltarını dəyişir. Toy üçün standart paltar olmasa da, ipək kimi bahalı parçadan tikilmiş paltarlara üstünlük verilir.

Finlandiyada gəlinlər toyda qızıl tac taxırlar. Toydan sonra subay qızlar gəlinin ətrafına toplanır. Gəlin gənc qızlar arasından birini seçib tacı ona verir və seçilən qızın ondan sonra evlənəcəyinə inanırlar.

Vikinqlərin dövründə evlilik auksion kimi edilirmiş. Bəy gəlinin atasına qiymət təklif edir və bu qiymətə razılaşıb-razılaşmamasını gözləyərmiş. Həmin pul miqdarı cehiz üçün istifadə olunarmış. Bundan əlavə, gəlinin sağ ayağına atası gümüş, sol ayağına da anası qızıl taxar və bu adətin cütlüyün həyatları boyu qızıl və gümüşdən korluq çəkməyəcəklərini simvolizə edirmiş.

Qiymətlərdən başgicəllənməsi keçirdinizsə, dönüb öz ölkəmizə baxaq. Bizdə vəziyyət bu qədər faciəli deyil. Şadlıq evlərində bir masanın qiyməti 30 manatdan başlayır, 150 manata qədər dəyişir. Toya 200 nəfər qonaq çağıracaqsınızsa, bu zaman 6000 manatdan 30 min manata qədər pul xərcləyə bilərsiniz. Bu pula zalın icarəyə verilməsi, menyu, musiqiçilər və videoçəkiliş daxildir.

Şadlıq evindən əlavə, bəy və gəlinin geyimlərinə də pul xərcləmək lazımdır. Gəlinlik paltarının kirayəsi 150 manatdan başlayır, 2000-3000 manata qədər dəyişir. Gəlinin gözəllik salonunda bəzənməsi 120-600 manat arası dəyişir. Bəylik kostyumlarının qiyməti 150 manatdan 1500 manata qədərdir. Bəyin saçının düzəldilməsi 10-50 manat arasıdır. 300-350 manata bəy toy mərasiminə tam hazır ola bilər. Toy üçün avtomobillərin kirayə qiymətləri 100-2000 manat arasıdır. Avtomobilin toy mərasimi üçün hazırlanması isə 50 manatdan 2000 manata qədərdir. Toy buketinin hazırlanmasına 50 manata qədər vəsait tələb olunur.

Ümumi hesablamalar göstərir ki, bizdə toyun məsrəfi 10 min manatdan başlayır. Müəyyən detalları əlavə və ya ixtisar etməklə bu qiyməti dəyişmək olar. Bir detalı da vurğulayaq ki, Azərbaycan toylarında nəmər yazdırma ənənəsi ev yiyəsinin çiynindəki yükü nisbətən azaldır. Çünki bu zaman xərcin ən böyük hissəsini təşkil edən toyxana məsrəfi sıradan çıxır. Bəzi hallarda isə çıxmır.

❑ **Sevinc TELMANQIZI**

# YENİ MÜSAVAT

## Son səhifə

*N 41 (6362) 22 fevral 2016*


# 500 milyon dollarlıq şəkil



Amerikalı milyarder Ken Griffinin iki tablo üçün böyük sərvət ödədiyi məlum olub. Griffin Jackson Pollock və Willem de Kooningə aid olan iki tablo üçün 500 milyon dollar ödəyib. Bu rəqəm sənət əsəri üçün ödənilmiş ən böyük məbləğ kimi tarixə düşüb.

Daha əvvəlki rekord isə Qatar Krallıq ailəsinə məxsus idi. El Tani ailəsi Gauguin adlı rəssamın "Nə zaman evlənəcəksən?" adlı tablosu üçün 300 milyon dollar ödəmişdi. Griffin Kooningə məxsus, 1955-ci ildə hazırlanan "Interchanged" adlı tabloya 300 milyon dollar, Pllockun 1948-ci ildə çəkdiyi "Number 17A" adlı əsərə isə 200 milyon dollar ödəyib.



## Eyni gündə evlənən əkizlərin ərləri eyni gündə də öldü

İngiltərədə 1975-ci ildə eyni gündə evlənən Lynda və Ann adlı əkizlərin ərləri eyni gündə də torpağa veriləcək. Lyndanın həyat yoldaşı Ronald Rossa ötən il xərçəng diaqnozu qoyulub. Uzun müddət müalicə edilən kişi 64 yaşında həyatını itirib. Lyndanın ölüm xəbərindən sonra Annın həyat yoldaşı Derrik Tomlinsonun halı pisləşib. Böyrəyində problem yaranan 61 yaşlı kişi daha sonra infarkt keçirib. Ərlərini eyni gündə torpağa verən əkizlər "bu gün həyatımızın ən pis günüdür" deyiblər.



## 30 il həbsdə yatdı, çıxan kimi anasını öldürdü

Amerikada 15 yaşlı qonşusunu öldürdüyü üçün həbs edilən və 30 il yatdıqdan sonra azadlığa çıxan Steven Pratt adlı kişi həbsdən çıxdıqdan iki gün sonra öz anasını qətlə yetirib. 30 il əvvəl Atlantik City şəhərində evlərinin qarşısında oynayarkən Pratt səs-küy elədiyi üçün ona deyinən qonşusunu öldürmüşdü. Prattın anası Gvendol Pratt isə oğlunu polis şöbəsinə apararaq törətdiyi cinayəti etiraf edib. Aradan keçən 30 il boyunca anasına olan əsəbi keçməyən Pratt, anasının təşkil etdiyi şənlikdən sonra onu öldürüb və törətdiyi cinayəti etiraf edib. Məhkəmədə hər şeyi məhv etdiyini və özünü pis hiss etdiyini deyən Pratt yenidən 25 il həbsdə yatacaq.

# Bibərin sağlamlığımıza xeyri

Bibər süfrəmizə xüsusi dad və estetik gözəllik gətirməklə yanaşı, sağlamlığımızın da qoruyucusudur. Məsələn, həkimlər qırmızı bibərin xərçəngə qarşı böyük müqavimət yaratdığını qeyd edirlər. Onun tərkibindəki likopen maddəsi prostat, pankreas və rəhm xərçəngi kimi xəstəliklərə qarşı olduqca təsirlidir. Qırmızı bibər antioksidant baxımından olduqca zəngindir və ürək narahatlığı riskini azaldır. Çəki salmaq istəyənlər üçün bibər gözəl vasitədir. Bibər bədən istiliyini artırdığına görə oksigenə ehtiyac yaradır. Bunun sayəsində çəkini nəzarətdə saxlamaq xeyli asanlaşır. Qırmızı bibərin tərkibində olan A vitamini gözlərə və immunitet sisteminə müsbət təsir göstərir. B vitamini isə beyin inkişafı üçün olduqca əhəmiyyətlidir. Maddələr mübadiləsinə təsir edir və zülalın enerjiyə çevrilməsinə kömək edir. E vitamini hüceyrələrin dözümlülüyünü artırdığına görə xərçəng yaranması potensialını azaldır. Qırmızı bibərdə C vitamini və kalium da boldur. C vitamini immunitet sistemini gücləndirir, kalium isə infarkt riskini aşağı salır. Acı bibərin tərkibində ağrıkəsici maddələr də vardır. Harvard tibb məktəbindən olan amerikalı alimlər sübut etdilər ki, acı çili istiotun tərkibinə ağrıkəsici maddələr daxildir.





## Oğru kraliça

Hindistandan oğurlanan və İngiltərə kraliçası Viktoriyaya hədiyyə edilən 100 milyon funt-sterlinq dəyərindəki almazla bağlı bu günlərdə məhkəmə prosesi başladılıb. Hindli vəkil kraliça Elizabetin oğurluğu davam etdirdiyini açıqlayıb. Adı "İşıq dağı" (Koh-i-Noor) mənasını verən 105 karatlıq almazın Pəncap əyaləti ələ keçirildikdən sonra ingilislər tərəfindən oğurlandığı deyilir. İngiltərə tərəfi isə 100 milyon sterlinq dəyərindəki almazın 1850-ci ildə Kraliça Viktoriyaya hədiyyə edildiyini iddia edir. Hazırda almazla bəzədilmiş tacı taxan II Elizabet üçün açılan məhkəmə İngiltərə mediasının gündəmindən düşmür. Hindistanlı biznesmenlər, vəkillər və sənətçilər kraliça II Elizabetin hesab verməsini istəyir.




**QOÇ** - Şəxsi işlərinizdə mövcud olan problemlərin həllini sürətləndirin. Həmkarlarınızla ümumi dil tapmağa çalışın. Yalnız bu halda yarımçıq işlərinizi yekunlaşdıra bilərsiniz. Səhhətinizi qoruyun.

**BUĞA** - Bütün gücünüzü görüş və danışıqlara istiqamətləndirin. Üzərinizə düşən vəzifələrin öhdəsindən gələ bilsəniz, nüfuzunuz artacaq. Şəxsi işləri, pul sövdələşmələrini təxirə salın.

**ƏKİZLƏR** - İxtiyarınızda olan bu təqvimdə ümumi gərginliyiniz azalacaq. Amma çətinliklərdən qurtulmaq üçün mütləq etibar etdiyiniz adamlardan dəstək istəyin. Bunun üçün səfərə də çıxmaq olar.

**XƏRÇƏNG** - Ulduzların düzümü pulla bağlı problemlərinizin qismən də olsa, qaydasına düşəcəyini bəyan edir. Amma borc vermək fikrinə də düşməyin. Saat 14-16 arası özünüzü bərk-bərk qoruyun.

**ŞİR** - Ulduzların düzümü passiv gün yaşayacağınızdan xəbər verir. Bir tərəfdən maliyyə sıxıntıları, digər tərəfdənsə həmkarlarınızla mübahisələr sizi hövsələdən çıxara bilər. Bəlkə qonaq gedəsiniz?!

**QIZ** - Kənar təsirlərə uymasanız, Göy qübbəsi sizə bir neçə şans verəcək. Boş və mənasız yerə vaxt itirməkdənsə əzmkarlığınızı artırın. Saat 16-dan sonra uğurlu anlarınız olacaq.

**TƏRƏZİ** - Sabit bir təqvim yaşayacaqsınız. Gün ərzində hansısa qeyri-adi hadisə ilə üzləşməyəcəksiniz. Odur ki, üzərinizə düşən işlərin həlli ilə məşğul olun. Yalan vədlər verməyin.

**ƏQRƏB** - Nə qədər səmimi olsanız, daha çox rəğbət qazanacaqsınız. Son vaxtlar xarakterinizdə yaranan çılğınlıq ulduzların xoşuna gəlmir. Vaxtilə yaxşılıq gördüyünüz adamlara arxa çevirməyin.

**OXATAN** - Ətrafınızda bədxahlar artsa da, bu, uğurlu məqamlar yaşayacağınıza mane olmayacaq. Saat 12-17 arası maraqlı görüş və sövdələşmələrdə iştirakınız gözlənilir. Qərarlarınızda sərt olun.

**OĞLAQ** - Şəxsi büdcənizi artırmaq üçün gözəl imkan var. Nahara qədər nəzərdə tutduğunuz planları reallaşdırandan sonra yalnız pul məsələləri ilə məşğul olun. Uğurlarınıza əmin ola bilərsiniz.

**SUTÖKƏN** - İş yerində ehtiyatlı olmağınız tələb olunur. Hər hansı addımı atmazdan əvvəl yaxşı-yaxşı götür-qoy edin. Unutmayın ki, çox danışan çox da yalan deyir. Ziyarətgahlara baş çəkin.

**BALIQLAR** - Bürcünüzün daha da aktivləşdiyi bu gündə yeni simalarla görüşəcəyinizə əmin olun. Şəxsi işlərinizdə bundan yararlanın. Günün ikinci yarısını pul problemlərinin həllinə yönəldin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Dünyanın ən köhnə paltarı



1977-ci ildə Misirdə tapılan paltarın radio karbon testindən sonra dünyanın ən köhnə paltarı olduğu açıqlanıb. Mütəxəssislər tarixi əsərlərin neçənci ildə hazırlandığını uzun müddət davam edən araşdırmalardan sonra müəyyənləşdirə bildirdiklərini deyirlər. Antik Misir dövrünə aid paltarın insanlıq tarixinin ən köhnə paltarı olduğu açıqlanıb. Arxeoloqların 1977-ci ildə apardıqları qazıntı işləri zamanı tapdıqları paltarın e.ə. 5100-5509-cu illərə aid olduğu məlum olub. Oksford Universitetində aparılan araşdırmalara görə isə paltar e.ə. 3101-3482-ci illərdə istehsal edilib. Köynəyin o dövrdə yaşamış bir aristokrata aid olduğu istisna edilmir.

**Səhifəni hazırladı: ŞAHNAZ**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "E-Q" mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

Lisenziya N: B 114
SAYI: 5.300

gücləndirir, kalium isə infarkt riskini aşağı salır. Acı bibərin tərkibində ağrıkəsici maddələr də vardır. Harvard tibb məktəbindən olan amerikalı alimlər sübut etdilər ki, acı çili istiotun tərkibinə ağrıkəsici maddələr daxildir.